Günəş Şərqdən doğur!

№ 205 (5726), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

11 noyabr 2022-ci il (cümə)


## Atalıq məzuniyyəti ilə bağlı qanun hazırlanır

### Həkimlərin əməkhaqları məsələsinə də baxılacaq

**"Azərbaycanın 2023-cü il və sonrakı 3 il üçün büdcə layihələri Azərbaycanın 2030-cu ilədək olan sosial-iqtisadi inkişaf strategiyasının müəyyən etdiyi tələbləri özündə əks etdirir".**

Bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Mədəniyyət komitələrinin birgə iclasında Maliyyə naziri Samir Şərifov deyib.



(Səh.7)



## Səmərqənddə Azərbaycan və Türkiyə Prezidentləri görüşüb

### Liderlər bölgədəki vəziyyəti və Soçi görüşünün nəticələrini müzakirə edib

**Dünən Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.**

Görüş Türk Dövlətləri Təşkilatının 9-cu Zirvə toplantısı çərçivəsində baş tutub.

Görüşdə ölkələrimiz arasında müttəfiqlik münasibətlərinə əsaslanan dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, bölgədə vəziyyət və təhlükəsizlik məsələləri müzakirə edilib, Soçi görüşünün nəticələri barədə fikir mübadiləsi aparılıb.

# Ərdoğan Ermənistanı sülhə çağırdı

### Fransa və ABŞ-dakı erməni diasporu prosesə mane olur



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan erməni diasporu ilə bağlı Ermənistan hakimiyyətinə çağırış edib.**

Özbəkistana səfərindən öncə jurnalistlərin suallarını cavablandıran Ərdoğan vurğulayıb ki, Ermənistanla son olaraq Praqada danışıqlar aparılıb:

(Səh.2)



## Azərbaycan səfiri İran XİN-ə çağırılıb

**Azərbaycan Respublikasının səfiri Əli Əlizadə bu gün axşam saatlarında İran Xarici İşlər Nazirliyinə çağırılıb.**

Bu barədə İRNA məlumat yayıb.

Səfirin XİN-ə çağırılmasına Azərbaycan mediasında İran əleyhinə təbliğatın aparılması səbəb kimi göstərilib.

## Fransa Azərbaycana yeni səfir təyin edib

**Fransa Azərbaycana yeni səfir təyin edib.**

Fransa Prezidenti Emmanuel Makron noyabrın 9-da müvafiq sərəncam imzalayıb.

Bildirilib ki, Ann Buayon (Anne Boillon) bundan sonra Fransanın Azərbaycandakı səfiri kimi fəaliyyət göstərəcək.

(Səh.7)

# Bizi ən çox xilas edən maskalar oldu

### Son illər vərəm xəstələrinin sayında da azalma müşahidə edilir



**"Fevral ayından indiyədək COVID-19 infeksiyası səbəbindən ölüm sayı 90 faiz azalıb".**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Tedros Adhanom Qebreyesusun sözlərinə görə, son həftə ərzində 9,4 mindən çox ölüm qeydə alınıb, fevralda isə həftə ərzində ölüm nisbəti 75 min civarında deyişib: "Biz uzun bir yol qət etmişik və bu, həqiqətən də nikbinlik üçün səbəbdir. Lakin biz hökumətləri, icmaları və bütün insanları ayıq-sayıq olmağa çağırırıq", - Qebreyesus deyib. Pandemiyanın başlanğıcından indiyədək dünyada 629 milyon yoluxma, 6,5 milyon ölüm faktı qeydə alınıb.

Azərbaycandakı koronavirusla bağlı real vəziyyəti dəyərləndirən həkim-infeksionisti Afət Novruzova hazırda dünyada və Azərbaycanda COVID-19 infeksiyasına yoluxmanın davam etdiyini deyib.

(səh.8)

## Bakıda ailə faciəsi

### İki azyaşlı siçan dərmanından zəhərlənib öldü



**Bakıda bir ailədə faciə baş verib.** Sabunçu rayonunda yaşayan ailələrdən birinin iki azyaşlı övladı siçan dərmanından zəhərlənərək ölüb.

Məlumata görə, iki qardaş siçan dərmanını şirniyyat bilib qəbul edib.

(səh.8)

## Yasamalda bəzi həyət evləri və qəzalı binalar sökülələk

### Vətəndaşları daha çox narahat edən zəmanətin olmamasıdır



**Bakıda növbəti köçürülmə prosesinə başlanılacaq.**

Yasamal rayonunda Alatava, "İnşaatçılar" metrosunun ətrafındakı ərazilərdə yerləşən həyət evləri, qəzalı beşmərtəbəli binalar sökülərək yeni binalar tikiləcək.

Yasamal Rayon İcra Hakimiyyəti aparatının şöbə müdiri Xəqan Teymurov bildirib ki, sakinlərin köçürülməsi istiqamətində iş adamları ilə danışıqlar aparılacaq.

(səh.12)



## "Rəsmi Moskva İrəvana daha böyük təzyiqlər göstərməlidir"

Arzu Nağıyev: "Əks halda bunun acı nəticəsini tək region yox, bütün beynəlxalq aləm görəcək"

(səh.6)



## "Can Azərbaycan şanslıdır"

Hulusi Kılıç: "Türkiyə NATO-dan əldə etdiyi təcrübələri Azərbaycanla bölüşür"

(səh.4)

# Özbəkistan-Azərbaycan münasibətləri strateji əhəmiyyət daşıyır

## Prezident İlham Əliyevin Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub

**Noyabrın 10-da Səmərqənddə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə görüşü olub.**

Azərtac xəbər verir ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və xanımı Ziroatxon Mirziyoyeva Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı qarşıladılar.

*Dövlət başçıları və birinci xanımlar birgə foto çəkdirdilər.*



**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dedi:**

-Hörmətli İlham Heydər oğlu, bir daha Özbəkistana xoş gəlmisiniz. Sizi Səmərqənddə görmək mənə çox xoşdur. Çox şadam ki, Siz xanımınız Mehriban Arif qızı ilə birlikdə gəlmisiniz. Ona görə ki, mən demişəm, bu, rəmzi məna daşıyır. Dediyim kimi, sabahkı Sammit rəmzi məna daşıyır, ona görə ki, bu tədbirin əsasını Naxçıvanda qoymuşuq, İlham Heydər oğlu, Sizin Vətəninizdə, atanızın Vətənində. Biz görürük ki, bu istiqamətdə çoxsaylı tarixi hadisələr baş verib. Özbəkistanda bu tarixi hadisə ilk dəfədir. Nə üçün Səmərqənddə təşkil olunması da böyük əhəmiyyət kəsb edir, ona görə ki, sabah Səmərqənddə ilk dəfə olaraq Zirvə Görüşü yeni adla keçiriləcək. Bütün bunlar hamısı qarşılıqlı surətdə əlaqəlidir. Beləliklə, xoş gəlmisiniz!

Danışıqlara başlamazdan əvvəl Sizi böyük Qələbə - 8 Noyabr günü münasibətilə təbrik etmək istəyirəm. Sizin yaxın dostlarınız kimi biz də bu Zəfəri bayram etmişik. Bu münasibətlə Sizi bir daha təbrik edirəm. 12 Noyabr - Konstitusiya Gününüzü təbrik edirəm. Sabah sizdə Milli Olimpiya Komitəsinin 30 illiyidir, bu münasibətlə də təbrik edirəm, - Siz bu təşkilata rəhbərlik edirsiniz. Bunlar elə hadisələrdir ki, yaxşı dostlar onları heç vaxt unutmamalıdırlar. Mən Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əlbəttə, dediyimiz kimi, bizim münasibətlər strateji əhəmiyyət daşıyır. Bir misal göstərim - bu il Sizinlə üçüncü dəfədir görüşürük. Bu, münasibətlərimizin strateji əhəmiyyətinə dəlalət edir. Siz üçüncü dəfədir ki, Özbəkistana səfər edirsiniz, buna görə Sizə çox təşəkkür edirəm. Əlaqələrimiz sistemli olub və ən başlıcası, konkret nəticələr verir. Bizim komandalar artıq bir-birini tanıyır. Biz Sizin gəlişinizə hazırlaşmışıq, çoxlu ciddi layihələr var, genişproqramlı çoxlu səfərlər olub. Artıq görüşürlər, söhbət edirlər. Hökumətlərarası Komissiyanın iclası uğurla, çox yaxşı keçib və həmkarlar Hökumətlərarası Komissiyanın sədri ilə söhbət ediblər, yaxşı plan nəzərdə tutublar.

***

**Azərbaycan Prezidenti İlham Əliyev dedi:**

-Sağ olun, hörmətli Şavkat Miromonoviç.

İlk növbədə, dəvətə və qonaqpərvərliyə görə təşəkkürümü bildirmək istəyirəm. Yenidən Səmərqənddə olmağıma çox şadam. Azərbaycanın Vətən müharibəsində Qələbəsi münasibətilə təbrikinizə görə təşəkkürümü bildirmək istəyirəm. Biz qardaş özbək xalqının, şəxsən Sizin bizə, ölkəmizə və Azərbaycanın ədaləti bərpa etməsinə münasibətinizi çox yüksək qiymətləndiririk. Biz bu dəstəyi müharibə dövründə də, sonra da hiss edirdik. Əlbəttə, işğaldan azad edilmiş Füzuli şəhərində məktəb tikmək təşəbbüsünüzə görə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, ərazilərin bərpası işinə ilk xarici töhfə olacaq və biz bunu çox yüksək qiymətləndiririk. İndicə Sizinlə informasiya mübadiləsi etdiyimiz kimi, məktəbin tikintisi artıq başlanıb. Bu məktəb bizim xalqlarımızın qardaşlığının rəmzi olacaq.

Həqiqətən son vaxtlar biz çox yaxınlaşmışıq. Fikrimcə, bu da bizim əcdadlarımızın iradəsidir və xalqlarımız arasında tarixi qardaşlıq əlaqələri məcrasında baş verir. Yeddi ay ərzində üçüncü dəfədir ki, Özbəkistana səfər edirəm. Hər dəfə şəxsən Sizə və qardaş özbək xalqına böyük məhəbbətlə, böyük hörmətlə gəlirəm və burada olandan sonra Sizin rəhbərliyinizlə Özbəkistanın qazandığı böyük nailiyyətlər haqqında danışıram. Daşkəndi, Xivəni, Səmərqəndi ziyarət etmək kifayətdir. Mən artıq Özbəkistanla kifayət qədər yaxşı tanışam və deməliyəm, birmənalı şəkildə qeyd etmək olar ki, Səmərqənd mühüm beynəlxalq siyasi mərkəzə çevrilib. Ona görə ki, burada dünya liderlərinin iştirakı ilə dünya səviyyəli müxtəlif beynəlxalq tədbirlər keçirilir. Bu münasibətlə də Sizi təbrik edirəm.

Əlbəttə, Sizin qeyd etdiyiniz mövzular gündəlikdədir. Biz Sizinlə razılaşdıq ki, qərarlarımızın yerinə yetirilməsinə nəzarət edəcəyik. Sizin qeyd etdiyiniz kimi, bütün istiqamətlər üzrə yaxşı proseslər gedir.

***

Görüşdə, həmçinin ölkələrimiz arasında iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələləri barədə fikir mübadiləsi aparıldı. Xüsusilə Prezident İlham Əliyevin Özbəkistana dövlət səfəri çərçivəsində əldə olunmuş razılaşmaların icrası istiqamətində görülən işlərə toxunuldu, bu baxımdan hökumətlərarası komissiyanın fəaliyyəti qeyd olundu.

Söhbət zamanı maşınqayırma sahəsində əldə edilmiş razılaşmaların həyata keçirilməsi istiqamətində müsbət nəticələrin olduğu bildirildi. Əczaçılıq, energetika sahələrində nailiyyətlər, həmçinin ipəkçilik sahəsində iki ölkə arasında qurulmuş uğurlu əməkdaşlıq layihəsindən çıxış edərək pambıqçılıq və toxuculuq sahələrində də ölkələrimiz arasında nailiyyətlərin olduğu vurğulandı. Bundan başqa, iki ölkənin regionları arasında əməkdaşlığın təşviqi məqsədilə bu ilin sonunda regionlararası forumun keçiriləcəyi qeyd olundu. Bu Forum çərçivəsində iki ölkənin bir sıra şəhərləri arasında qardaşlıq münasibətlərinin qurulması barədə anlaşmaların imzalanacağı müsbət hal kimi vurğulandı. Bu tədbirlərin Azərbaycan ilə Özbəkistan arasında qardaşlıq münasibətlərinin inkişafına mühüm töhfə verəcəyi ifadə edildi.

Dövlət başçıları, həmçinin iki ölkə arasında humanitar-mədəni sahədə əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd edərək, mədəniyyət qruplarının intensiv qastrol səfərlərinin təşkilinin vacibliyini bildirdilər.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşünün Səmərqənd şəhərində keçirilməsinin böyük tarixi və rəmzi məna daşıdığı vurğulandı. Xüsusən təşkilatın adının dəyişdirilməsindən sonra ilk Zirvə Görüşünün bu tarixi şəhərdə təşkil olunmasının önəmi qeyd edildi.

# Bayden və Si Cinpin G20 sammiti çərçivəsində görüşəcək



**ABŞ Prezidenti Co Bayden ilə Çin Sədri Si Cinpin arasında görüş keçiriləcək.**

APA xəbər verir ki, bu barədə Ağ Ev məlumat yayıb.

Görüş noyabrın 14-də İndoneziyanın Bali adasında keçirilən Böyük İyirmilik (G20) sammiti çərçivəsində baş tutacaq.

"Liderlər Birləşmiş Ştatlarla Çin arasında kommunikasiya xətlərinin saxlanılması və genişləndirilməsi səylərini müzakirə edəcək.Tərəflər qlobal ictimaiyyəti maraqlandıran transmilli çağırışlarda birgə işləmək barədə müzakirələr aparacaq. Liderlər bir sıra regional və qlobal problemləri də müzakirə edəcəklər", - deyə Ağ Evin sözçüsü bildirib.

# Hərbçimiz ürək çatışmazlığından vəfat edib

**Azərbaycan Ordusunun hərbi qulluqçusu Baxışov Cavan Cavanşir oğlu məzuniyyətdə olarkən noyabrın 9-u axşam saatlarında ürək çatışmazlığından vəfat edib.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən bildirilib. Məlumata görə, faktla bağlı araşdırma aparılır. Müdafiə Nazirliyinin rəhbərliyi vəfat edən hərbi qulluqçumuzun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, səbir diləyir!

# Ərdoğan Ermənistanı sülhə çağırdı

## Fransa və ABŞ-dakı erməni diasporu prosesə mane olur

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan erməni diasporu ilə bağlı Ermənistan hakimiyyətinə çağırış edib. Özbəkistana səfərindən öncə jurnalistlərin suallarını cavablandıran Ərdoğan vurğulayıb ki, Ermənistanla son olaraq Praqada danışıqlar aparılıb:**

"Ermənistana açıq və konkret şəkildə dedik ki, əgər siz Azərbaycanla münasibətləri müsbət istiqamətdə aparsanız, Türkiyə olaraq bizim də Ermənistanla münasibətlərimiz müsbət istiqamətdə olacaq. Biz Ermənistandan bunu gözləyirik. Hazırda bu mərhələyə gəlmişikmi? Bunu deyə bilmərəm". Ərdoğan Fransa və ABŞ-dakı erməni diasporunun davamlı olaraq normallaşma prosesinin əleyhinə olduğunu qeyd edib. Diqqətə çatdırıb ki, bu yanaşma normallaşma prosesinə mənfi təsir göstərir. Türkiyə lideri əlavə edib ki, bunun qarşısını ancaq Ermənistan hakimiyyəti ala bilər. Ərdoğan qeyd edib ki, Ermənistanın Laçın və Zəngəzur dəhlizləri ilə bağlı addımları Türkiyənin addımlarına müsbət təsir göstərə bilər.



**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında deyib ki, Türkiyə prezidentinin mesajı çox önəmlidir. Professor bildirib ki, Ərdoğan növbəti dəfə Azərbaycanın yanında olduğunu vurğulayıb və Ermənistanla yanaşı, Qərbə, Avropaya da mesajlar verib:** "Erməni lobbisi sülh prosesinə mənfi təsir göstərir, gedişata mane olmaq üçün əlindən gələni edir. Erməni diasporasının fəaliyyətinə yön verən Fransa və ABŞ kimi ölkələr, həmin dövlətlərin Ermənistanla bağlı maraqlarıdır. Məhz bu iki dövlət Azərbaycanla Ermənistan arasında sülhün bağlanmasını istəmir. Rəsmi Paris və Vaşinqtonun məqsədi odur ki, Ermənistan rəhbərliyi Rusiya faktorundan tamamilə imtina etsin. Paşinyan bunu edə bilmədiyi üçün çox çətin vəziyyətdə qalıb və sərsəmləməyə başlayıb. Gah deyir ki, Azərbaycan rəhbərliyinin fikirləri guya üst-üstə düşmür. Yaxud bildirir ki, Qarabağdakı qondarma rejim tərəf kimi masada yer almalıdır. Həmçinin, sərhəddə, həmçinin, Qarabağdakı separatçıların ətrafında "neytral", yəni "hərbsizləşmiş zona" yaradılmasından danışır və s. Paşinyanı belə danışmağa təhrik edirlər. Hansı təlimatları alırsa, o cür açıqlamalar verir".

**C.Nuriyev vurğulayıb ki, erməni toplumu son iki yüz ildə lobbi və diaspora vasitəsi ilə hərəkət edib:** "Daha doğrusu, bir sıra Qərb ölkələri lobbinin əliylə ermənilərə təsir göstərib, onları yönləndirib. Diaspora öz çirkin təbliğatları üçün dünyanın müxtəlif yerlərində yaşayan ermənilərdən pul toplayır. Bu işə erməni kilsəsi rəhbərlik edir. Ermənilərin dövləti olmadığına görə kilsə "dövlət" statusunda olub və öz ətrafında terrorçu qrupları cəmləyib. Ancaq 44 günlük müharibə erməni kilsəsinin və lobbisinin gedişatına "dur"dedi və böyük zərbə vurdu. Artıq dünyanın bir çox ölkəsində ermənilər lobbinin zorla aldığı "ianəni" ödəməkdən imtina edirlər. Çünki lobbinin "Böyük Ermənistan" mifi darmadağın olub. Ermənilər aldandıqlarını çox gözəl bilirlər".

görə, erməni kilsəsi diasporanı yenidən canlandırmaq üçün Paşinyana təzyiq göstərsə də, İrəvan hökuməti də, erməni toplumu da lobbiyə inamını itirib: "Onları yenidən hansısa nağıla inandırmaq demək olar ki, qeyri-mümkündür. Türkiyə lideri dolayı yolla bunu dilə gətirir və Paşinyana, erməni xalqına çağırış edir. Ermənistan rəhbərliyi və xalqı normal düşünürək, çağırışlara müsbət cavab verərsə, həm rahat və təhlükəsiz həyat yaşayarlar, həm də lobbinin istismarından xilas olarlar".

**İsmayıl Qocayev**

# Bəzi xəstəxanaların tibbi avadanlıqları tükənib

## Əhliman Əmiraslanov onkoloji xəstəliklərin sığorta üzrə xidmətlər zərfinə daxil edilməsini təklif edib

**Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Mədəniyyət komitələrinin birgə iclasında çıxış edən deputat Razi Nurullayev qızların təhsil haqqının dövlət tərəfindən ödənilməsini təklif edib. Millət vəkili bildirib ki, illik gəliri 15-20 min olan ailələrdə qız uşaqlarının təhsil haqqı da dövlət tərəfindən ödənilməlidir:**

"Bu, çox vacibdir. Digər tərəfdən, rayonlarda hazırda istirahət etmək üçün yer restoran, kafedir. Biz bu gün kitabxanaları mədəniyyət mərkəzinə çevirməliyik. Hər rayonda kitabxanalara ayrılan vəsaitin azaldılması yox, artırılması lazımdır. Həmçinin, büdcədən onkoloji xəstəliklərə ayrılan 47 milyon vəsait çox azdır. Deputat təklif edib ki, icbari tibbi sığortaya 40-50 milyon vəsait ehtiyat kimi ayrılsın: "Elə ailələr var ki, onkoloji xəstəliyə görə ölüm-dirim mübarizəsi aparır. Ayrılan ehtiyat vəsait onların müalicəsinə xərclənsin".

**Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov deyib ki, icbari tibbi sığortanın tətbiqi sahəsində əhalinin məmnunluğu günbəgün artır, amma bu sahədə çatışmazlıqlar var. Komitə sədri bildirib ki, xəstəxanaların tibbi avadanlıqları tükənib:** "Bizim bir neçə xəstəxanamızın tibbi avadanlıqlarının dayanmaq təhlükəsi ilə üz-üzə qalması problemini qaldırmışdım. Samir müəllim, sizə və Əli Əsədova təşəkkür edirəm. Artıq bu istiqamətdə addımlar atılır". Komitə sədri icbari tibbi sığorta üzrə xidmətlər zərfinə onkoloji xəstəliklərin də daxil edilməsini təklif edib: "Zaur müəllim dedi ki, onkoloji xəstəlikləri icbari tibbi sığorta ilə əhatə etmək üçün 200 milyon manat vəsait lazımdır. Onkoloji xəstəliklərin nə dərəcədə ağır olması barədə hamı bilir. Mən əminəm ki, bu, nəzərə alınacaq. Hörmətli maliyyə nazirindən bunu nəzərə almasını xahiş edirəm".



**Autizm xəstəliyinin icbari tibbi sığorta ilə əhatə olunması təklif edilib**

**Əhliman Əmiraslanov deyib ki, autizm xəstəliyinin vəsait tutumu da çoxdur və icbari tibbi sığortadan kənarda qalıb:** "Təklif edirəm ki, bu xəstəliyin müalicəsi də icbari tibbi sığorta ilə əhatə olunsun. 16 dövlət proqramı var: "Buna vəsait ayrılır. Amma bu vəsait bəs eləmir. Dövlət proqramları da icbari tibbi sığorta ilə hökmən əhatə olunmalıdır".

**"Regionlarda iqtisadi inkişafın tempi artacaq"**

**Deputat Rüfət Quliyev vergi tətilinin 3 illik olmasını təklif edib:** "Regionlarda ən böyük problem nə şəhid ailələrinin, nə qazi, nə də veteranlar ilə bağlı aparılan sosial siyasətdir. Problem işsizliklə bağlıdır. "Burada yeganə çıxış yolu orada mikro, kiçik və orta sahibkarlığın inkişafıdır. Ya da sahibkarlıqla bağlı mövcud şəraiti də münbit etmək lazımdır. Təklif edirəm ki, infrastruktur xərcləri azaldılsın. 3 illik vergi güzəştləri tətbiq olunsun. Onlar rahat işlərini görsün, rahat fəaliyyət göstərsinlər. Söhbət istehsal və təkrar istehsaldan gedir. Digər məsələ vergilərlə bağlıdır. Vergilər ilə bağlı hansı köməklik etmək olarsa, onları etmək lazımdır. Elə kəndlər var ki, orada yeni müəssisələrdə istehsal və ya təkrar istehsalı ilə bağlı müəyyən güzəştlər olunsun. Düşünürəm ki, bununla da regionlarda iqtisadi inkişafın tempi artacaq".

**Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev tələbələrin elmi tədqiqatlara cəlbi üçün vəsait ayrılmasını təklif edib.** Bildirib ki, davamlı inkişafı təmin edəcək mütəxəssislər hazırlanmalıdır: "Davamlı inkişaf üzrə fəaliyyət planını isə biz hələ də hazırlayıb hökumətə təqdim edə bilməmişik. Burada əsas problem maliyyədir. Digər məsələ isə elmlə bağlıdır. Strategiyada elm və təhsilin inteqrasiyası nəzərdə tutulur, amma tələbələrin ilk gündən elmi tədqiqatlara cəlb edilməsi üçün vəsaitlərin ayrılması məsələsi həllə də açıq şəkildə qalmaqdadır. Azərbaycan xaricdə doktorantların hazırlanması üçün külli miqdarda vəsait ayırır. Amma Azərbaycanda bu istiqamətə nə qədər vəsait ayırırıq? Azərbaycanda yüksək keyfiyyətə malik laboratoriyalar olmalıdır. Bunun üçün büdcədə müəyyən məqamlar göstərilməlidir. Pul ayrılır, xərclənir. Amma Hesablama Palatası araşdırmalar nəticəsində müəyyən edir ki, bu vəsaitlər təyinatı üzrə xərclənməyib. Dövlət proqramlarının nəticələri hər il büdcədə qiymətləndirilməlidir. Çünki növbəti dövlət proqramları əvvəlkinin üzərində qurulur. Dövlət proqramları qarşıya oyulan nəticəyə çatmırsa, növbəti dövlət proqramından da nəticə gözləmək olmaz. Ona görə də büdcədə bunlar nəzərə alınmalıdır".

**"Tibb Universitetinin problemlərinə diqqət yetirilməlidir"**

**Deputat Məlahət İbrahimqızı deyib ki, Azərbaycan Tibb Universitetinin çox ciddi problemləri var. Parlamentin Səhiyyə komitəsinin üzvü bildirib ki, 2017-ci ildən Tibb Universitetinə ayrılan vəsaitlərin bir hissəsi dayandırılıb və bunun səbəbi açıqlanmayıb:** "İkincisi, vergi ilə bağlı problemi var. Bu gün özəl klinikalarda, özəl tibb müəssisələrində 8 000-dən yuxarı maaş alanda vergi tutulursa, Universitetdə çalışanlar üçün bu qədər ağır verginin tətbiq olunması Tibb Universitetini çox ağır vəziyyətə gətirib. Koronavirus pandemiyası dövründə Tibb Universitetinin korpusları bütövlükdə koronavirus xəstələrinə, ondan sonra Vətən müharibəsində yaralananlara öz qapısını açdı, bütün bunları öz vəsaiti hesabına edib. Samir müəllimdən xahiş edirəm ki, Tibb Universitetinin problemlərinə diqqət yetirəsiniz. Universitetin müəllim və həkim heyəti artıq özəl klinikalara üz tutur və bu da gələcəkdə ixtisaslı kadrların yetişdirilməsində böyük problemə səbəb olacaq".

**"İran radiolara müdaxilələr edir"**

**Deputat Məzahir Əfəndiyev bildirib ki, radiolara müdaxilələr olur.** Xüsusilə cənub zonasında İran radiotezlikərə müdaxilə edir. Onun sözlərinə görə, bu, dinləyicilərdə çaşqınlıq yaradır. Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov isə bildirib ki, bunun səbəbi radioproqramlarla bağlıdır: "Radioproqramların sayı nə qədər çox olarsa, müdaxilələr azalar". Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin sədr müavini Heydər Rüstəmov isə bildirib ki, radiotezliklərə müdaxilə qəbuloIunmazdır: "Heç bir ölkə digər ölkə ərazisindəki yayıma müdaxilə edə bilməz. Biz bunu xüsusilə cənub zonasında hiss edirik. Düzdür, bəzən belə hallar iqlim ilə bağlı olur. Məsələn, Gürcüstanda bizim, bizim isə Gürcüstanla sərhəddə tezliklərin qarışması olur. Rusiya ilə isə belə hallar demək olar ki, olmur".

**İsmayıl**

## Ərdoğana Özbəkistanın ən yüksək dövlət medalı təqdim olundu



**Bu gün Səmərqənd şəhərində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Özbəkistan Prezidenti Şavkat Mirziyoyev birgə mətbuat konfransı keçirib.**

Trend DHA-ya istinadən xəbər verir ki, konfrans zamanı Prezident Ərdoğana Özbəkistanın ən yüksək dövlət medalı olan İmam Buhari təqdim edilib.

Ərdoğan dövlət medalından çox məmnun olduğunu deyib.

"Mən bu medalı ölkələrimiz arasında əbədi qardaşlığın güclü simvolu kimi qəbul edirəm", - deyə Prezident bildirib.

## Zelenski və Trüdo taxıl müqaviləsinin uzadılmasını müzakirə ediblər

**Ukrayna Prezidenti Volodimir Zelenski Kanadanın baş naziri Castin Trüdo ilə telefon danışığı zamanı taxıl müqaviləsini və Kiyevə hərbi yardımın genişləndirilməsini müzakirə ediblər.**

"Report" xəbər verir ki, bu barədə Ukrayna lideri teleqram kanalında qeyd edib.

*Qeyd edək ki, bu, Zelenskinin Qərb liderləri ilə gün ərzində ikinci söhbətidir, bundan əvvəl Böyük Britaniyanın baş naziri Rişi Sunak ilə telefonla danışıb və onunla taxıl müqaviləsini də müzakirə edib.*

# Rusiya Ukrayna müharibəsində artıq məğlub olub

"Cavabsız qalan yeganə sual müharibənin nə vaxt bitəcəyi və rəsmi Kiyevin hansı şərtlər çərçivəsində sülh müqaviləsi imzalamasıdır"

**Ukrayna qoşunlarının payızda Xersonu almaq üçün əks-hücum əməliyyatına başlaması öz effektini verməkdədir. Rusiyanın Müdafiə naziri Sergey Şoyqu Ukraynadakı qoşunların komandanı Sergey Surovikinin məruzəsindən sonra rus qoşunlarının Xersondan çıxarılmasına dair əmr imzalayıb. Artıq Xersondakı inzibati binalardan Rusiya bayraqları da götürülüb.**



Rusların Xersondan çəkilməsi haqqında müxtəlif iddialar səslənir. Ən çox səsləndirilən versiya bu geriçəkilmənin diplomatik müzakirələri başladacağı barədədir. Prinsip etibarilə Rusiya ilə ABŞ arasında diplomatik sferada müzakirənin getdiyi doğrudur. "Vol Strit Jurnal" nəşri də ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivanın Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevlə son bir ayda bir neçə dəfə gizli danışıq apardığını yazır. Sallivanın Putinin köməkçisi Yuri Uşakovla da danışdığı deyilir. Aydın məsələdir ki, danışıqların məqsədi eskalasiyanın daha da genişlənməsi riskinə qarşı birbaşa əlaqə kanalının açıq saxlanılmasıdır. Ümumiyyətlə, Bayden administrasiyası Moskva ilə birbaşa əlaqəni milli təhlükəsizlik baxımdan vacib hesab edir. Bütün hallarda müharibə gec-tez bitməlidir və bunun üçün də birbaşa əlaqənin saxlanılması vacibdir.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə deyib ki, Rusiya komandanlığının Xersondan çəkilmək əmri hərbi-taktiki baxımdan da doğru qərardır. Ekspertin fikrincə, əslində, proses Surovikinin "çətin qərarlar verə bilərik" açıqlamasından sonra başlamışdı. Çünki Ukrayna ordusu rus qoşunlarının əsas logistik kanallarını kəsməyi bacarıb:** "Hərbi-taktiki və diplomatik baxımdan rus qoşunlarının Xersonu tərk etməsi düzgün qərar olsa da, bu geriçəkilmə siyasi olaraq Rusiyanın prestijinə ciddi zərbə deməkdir. Məsələ ondadır ki, rəsmi Moskva cəmi 1 ay 10 gün əvvəl Xerson da daxil olmaqla işğal etdiyi Ukrayna ərazilərini təntənəli şəkildə Rusiya torpağı elan etmişdi. Bu gün isə həmin ərazilərdən geri çəkilmək məcburiyyətində qalır. Düzdür, bir-iki "banan respublikasını" çıxmaqla, heç kəs işğal edilən Ukrayna torpaqlarını Rusiya ərazisi olaraq tanımasa da, faktiki olaraq indi bütün dünya görür ki, Rusiya kimi nəhəng nüvə gücü öz ərazisi elan etdiyi torpaqları qoruya bilmir. Nüvə silahına əl atmağa isə cəsarət etmir. Nəticə etibarilə demək olar ki, Rusiya Ukrayna müharibəsində artıq məğlub olub. Hazırda cavabsız qalan yeganə sual müharibənin nə vaxt bitəcəyi və rəsmi Kiyevin hansı şərtlər çərçivəsində sülh müqaviləsi imzalamasıdır".

**İsmayıl**

# Zəngəzur dəhlizi mütləq açılmalı, sülh müqaviləsi imzalanmalıdır

## Ermənistan və havadarları Prezidentin Zəfər çıxışından nəticə çıxarmalıdır

**Noyabrın 8-də Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşada təşkil olunan tədbirdə iştirak etdilər. Dövlət başçısı daha sonra hərbçilər qarşısında çıxış etdi. Prezidentin çıxışı bir neçə baxımdan diqqət çəkir. Birincisi, Prezident İlham Əliyev çıxışında qeyd edib ki, Azərbaycan müsəlman ölkələri ilə sıx əlaqə qurdu və onlara izah etməyə nail olduq ki, Ermənistan təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı təcavüzkar siyasət aparır:**

”Məscidləri dağıdan müsəlman ölkələri ilə dost ola bilməz. Məscidləri dağıdana müsəlman ölkələrinin rəhbərləri qucaq aça bilməz, bilər? Onları qucaqlayıb öpə bilər? Bu, riyakarlıqdır, bu, satqınlıqdır”. Aydın məsələdir ki, Prezident ”müsəlman ölkələr” ifadələri ilə İrana da mesaj verir. İran 44 günlük Vətən müharibəsinin gedişində, eləcə də işğal dövründə müsəlman dövlətinə yaraşmayacaq şəkildə özünü apardı. Ermənistan tərəfi Qarabağda yüzillik, hətta minillik məscidləri dağıdıb donuz fermasına çevirərək islam dinini və islam ölkələrini təhqir etdiyi halda İran buna reaksiya vermədi. Əslində, bu hal belə özlüyündə İranın islam dininə münasibətinin sırf siyasi və imperialist maraqları kontekstində olduğunu göstərir. Digər yandan Prezidentin çıxışında diqqətçəkən məqam onun Rusiya sülhməramlıları ilə bağlı dedikləri oldu. Dövlət başçısı ”Qarabağ bizim torpağımızdır, rus sülhməramlılar orada müvəqqəti yerləşiblər” dedi. Bildirdi ki, 2020-ci ilin 10 noyabr bəyanatında onların müddəti göstərilir və əgər ermənilər kiməsə bel bağlayırlarsa, yenə də faciə ilə üzləşəcəklər”. Ölkə başçısı bu sözləri ilə faktiki olaraq Ermənistana sülhməramlıların 5 ildən sonra çıxacağını və buna uyğun davranmağı tövsiyə edir. Digər tərəfdən sülhməramlıların 5 ildən sonra çıxarılacağının vurğulanması həm də Azərbaycanın ”sülhməramlıların qalma müddətinin uzadılması üçün müraciət etməyəcəyini” göstərir. Prezident Zəngəzur dəhlizinin Ermənistanın öhdəliyi olduğunu bir daha vurğuladı.



**Millət vəkili Ceyhun Məmmədov deyib ki, Ermənistan və havadarları Prezidentin çıxışından ciddi nəticə çıxarmalıdır. Deputat vurğulayıb ki, dövlət başçısı 8 noyabr - Zəfər Günü münasibətilə Şuşadakı çıxışında bir çox vacib məqamlara toxundu:** ”Prezident şanlı zəfərə gedən yolda Azərbaycanın əldə etdiyi uğurlardan, həyata keçirilən uğurlu daxili və xarici siyasətdən geniş bəhs etdi. Qəhrəman Azərbaycan Ordusunun müharibədə böyük şücaət göstərdiyini, Azərbaycan xalqının vahid yumruq kimi birləşərək şanlı tarix yazdığını xüsusi vurğuladı. Qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin çıxışındakı fikirlər Ermənistana, bu ölkənin havadarlarına, Ermənistanın cinayət əməllərini, təxribatçı mövqeyini dəstəkləyən bütün dövlətlərə ciddi mesaj və xəbərdarlıqdır. Reallıq ondan ibarətdir ki, bu gün Ermənistan öz havadarlarına arxayın olaraq yenə də təxribatlar törədir. Əlbəttə, bunlar birmənalı olaraq qəbuledilməzdir. Ermənistan tez bir zamanda bütün təxribatlara son qoymalıdır. Ermənistan və havadarları bilməlidirlər ki, əgər təxribatlar davam etsə, bunun aqibəti Ermənistan üçün yaxşı olmayacaq. Azərbaycan heç zaman Ermənistanın təxribatlarına göz yummayacaq. Azərbaycanın mövqeyi prinsipial və qətiyyətlidir”.

Parlament üzvü bəyan edib ki, Prezidentin çıxışındakı digər bir mühüm məqam isə Ermənistanın Zəngəzur dəhlizi ilə bağlı öhdəliyini yerinə yetirməkdən boyun qaçırmasıdır: ”Bu gün Qarabağdakı ermənilər Ermənistana rahat şəkildə gedib-gələ bilirlər. Azərbaycan Laçın dəhlizinə alternativ yol çəkib. Əgər bu gün ermənilər Qarabağa rahat gedib-gəlirlərsə, deməli, azərbaycanlılar da Naxçıvan Muxtar Respublikasına rahat gedib gəlməlidirlər. Ermənistan bunun üçün şərait yaratmalı, Zəngəzur dəhlizinin açılması ilə bağlı öhdəliyini yerinə yetirməlidir. Sözügedən razılaşmada açıq şəkildə bəyan olunub ki, Ermənistan silahlı qüvvələri və qanunsuz erməni silahlı dəstələri Azərbaycan ərazisindən çıxarılacaq. Ancaq təəssüf ki, bu günə kimi bu məsələ həll olunmayıb. Ermənistan hərbçilərinin və qeyri-qanuni erməni silahlı dəstələrinin hələ də Qarabağda olduğunu görürük.

Prezident İlham Əliyev çıxışında həmçinin, Ermənistanla sıx əməkdaşlıq və İrəvana himayədarlıq edən müsəlman dövlətlərinə, xüsusilə də İrana aydın mesaj ünvanladı. Müsəlman ölkələrin rəhbərləri nəzərə almalıdırlar ki, Ermənistan Azərbaycana qarşı çox sayda vəhşiliklər törədib, ermənilər vaxtilə işğal altında saxladıqları ərazilərdə məscidləri dağıdıblar, islam mədəniyyətinin bir hissəsi olan dini abidələrimizi məhv ediblər, talayıblar. Müsəlman ölkəsi başçısının belə bir əməllər törədən Ermənistanın rəhbərini qucaqlaması, onunla öpüşməsi qəbuledilməzdir. Özünü müsəlman hesab edən bir dövlətin lideri bu addımı atmamalıdır. Sonda vurğulamaq lazımdır ki, Ermənistan və onun havadarları Azərbaycan Prezidentinin Şuşadan etdiyi xəbərdarlıqlardan ciddi nəticə çıxarmalı, Zəngəzur dəhlizi mütləq açılmalı, sülh müqaviləsi imzalanmalıdır. Azərbaycanın mövqeyi prinsipial və qətiyyətlidir. Bunu həm Ermənistan, həm də Ermənistanın havadarları ciddi şəkildə nəzərə almalıdır”.

**İsmayıl Qocayev**

---

# “Can Azərbaycan şanslıdır”

## Hulusi Kılıç: “Türkiyə NATO-dan əldə etdiyi təcrübələri Azərbaycanla bölüşür”

**2020-ci il, 8 noyabr. Xalqı Qarabağa qovuşduran tarix. Bu şanlı tarixin yazılmasının əsas memarı Ali Baş Komandan İlham Əliyev və düşmənə diz çökdürən Azərbaycan Ordusudur. İki il əvvəl, 27 sentyabrda başlayan, 44 günə qazanılan zəfər Qarabağ münaqişəsinə birdəfəlik nida qoydu. Müharibə dövründə erməni silahlı birləşmələri Gəncəyə, Bərdəyə, Tərtərə ballistik və kasetli raketlər atdı, mülki əhalini hədəfə çevirdi.**

Amma baş verən müharibə cinayətləri millətin iradəsini sındırmadı. Gəncə sakini, keçmiş döyüşçü Taryel Şahverdiyevin dediyi kimi, ”qan görəndə qorxmuruq, əksinə, qızışırıq”.

44 gün ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edildi.

Noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də Laçın rayonları öz sahibinə - Azərbaycana qaytarıldı. Beləliklə, 44 günlük müharibəyə iki kəlmə ilə yekun vuruldu: Qarabağ Azərbaycandır!

Əsas nüansı da unutmamalıyıq. Erməni vandalları 30 il ərzində yaşayış və ictimai binaları yerlə-yeksan edib, bütün infrastruktur obyektlərini, maddi-mədəniyyət abidələrini dağıdıb. Hazırda işğaldan azad edilən torpaqların yenidən qurulması, bərpası qarşıda duran ən mühüm məsələlərdəndir. Qarabağda hər gün daş üstə bir daş qoyulur. Azərbaycanın incisi Qarabağ sözün əsl mənasında dirçəlir.



**Qələbə münasibətilə “Şərq”lə fikirlərini bölüşən Türkiyənin Azərbaycandakı keçmiş səfiri Hulusi Kılıç bildirib ki, Ankaradan Bakıya verilən mənəvi, siyasi, diplomatik dəstək savaşın qazanılmasında əhəmiyyət daşıyır:** ”30 ilə yaxın işğal edilən torpaqların azadlığına qovuşmasının vaxtı çatmışdı. Prezidentimiz Rəcəb Tayyib Ərdoğanın ”Azərbaycan tək deyil”, Xarici işlər naziri Mövlud Çavuşoğlunun ”Biz Azərbaycana hər cür dəstəyi verməyə hazırıq”, Milli müdafiə naziri Hulusi Akarın ”Azərbaycanın yanındayıq” mesajları bizim ”bir millət, bir dövlət” olduğumuzun ismarışını ötürmüşdü. Ali Baş Komandan İlham Əliyevin üstün liderliyi, xalqın həyəcanı və can Azərbaycan Ordusunun gücü vədənin yetişdiyini göstərirdi. Rayonların işğaldan qurtarılma xəbərləri gəldikcə, sadəcə Azərbaycanda deyil, Türkiyədə də həyəcanla qarşılanırdı. 44 gün müddət ərzində türk xalqı televiziyadan irəliləyişləri izləyirdi.

Mən hər gün məqalələr yazdım. Azərbaycan və digər televiziyalara çıxaraq dəstək mesajları verməyə çalışdım. 44 günlük Vətən müharibəsi dönəmində yazdıqlarımı kitaba çevirdim. Sonra bu kitabı şəhid və qazi ailələri üçün nəzərdə tutulan ”YAŞAT” Fondu üçün satdım. Satışdan gələn məbləği Fonda köçürdüm. Qazanılan qələbə Azərbaycanın, həmçinin Türkiyənin, ümumilikdə Türk dünyasının Zəfəridir. Azərbaycan torpaqlarının işğal edilməsi türk dünyası üçün yara idi. Həmin yara sağaldı. Namusumuzu qurtardıq! Zəfərimiz mübarək, düşmənlərimizə lənət olsun! Qədim türk torpaqlarını işğal edən ermənilər, 44 gün ərzində türkün gücünü gördülər. Həmişə deyirik ki, bizimlə dost olun. Düşmənliyi seçsəniz, nə olacağı ortadadır”.

H.Kılıçın sözlərinə görə, Azərbaycan və Türkiyənin dostluğu, qardaşlığı çox əhəmiyyətli, qiymətlidir: ”Dövlət başçısı İlham Əliyevin yürütdüyü siyasət təqdirəlayiqdir. Artıq hər kəs Prezidentin ətrafında toplanır, Avropada etibar qazanıb. Müharibənin qalibi olan bir Prezident! Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Prezidentə verdiyi dəstək də önəmlidir. Azərbaycan öz gücü ilə torpaqlarını qoruya bilən dövlətdir. Azərbaycan əvvəl iqtisadi gücünü qazandı, ardınca siyasi liderliyə sahib oldu.

Hərbi gücünü isə Türkiyənin təcrübələri ilə birlikdə daha da möhkəmləndirdi. Türkiyə NATO-nun üzvüdür. NATO-dan əldə etdiyi bütün təcrübələri Azərbaycanla bölüşür. Gürcüstan NATO-ya girmək istədi, başına bəlalar gəldi. Ukrayna NATO-ya girməyə çalışdı, indiki vəziyyətini görürük.

Can Azərbaycan şanslıdır, Türkiyə heç nəyi əsirgəmir.

”Şuşa Bəyannaməsi” Türkiyə və Azərbaycan arasında strateji tərəfdaşlıq yönündə atılan mühüm addımdır. Sənəd Azətbaycan və Türkiyə müttəfiqliyinin ”kupçası”dır, çox dəyərlidir. Məktəblərdə öyrədilməlidir”.

**Aygün Tahir**










# Turan şairi Əhməd Cavad Türkiyədə anıldı

## Azərbaycan Türk Ocağı Ankara və İstanbulda geniş tədbirlər keçirib

**Azərbaycan Türk Ocağı İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Əhməd Cavadın 130 illik yubileyi"nə həsr olunmuş silsilə tədbirlər davam etdirilib.**

"Əhməd Cavad və Türk Dünyası" layihəsi çərçivəsində Azərbaycan Türk Ocağı İctimai Birliyinin növbəti tədbirləri Türkiyədə - Ankara və İstanbul şəhərlərində keçirilib. İlk tədbir noyabrın 5-də Ankarada Türkiyə Türk Ocaqlarının Mərkəzi Qərargahında baş tutub. Tədbirdə elm adamları, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak ediblər. Canlı yayımlanan elmi-kütləvi konfransda Balıkəsir Türk Ocağının gənc üzvləri də fəal iştirak ediblər. Tədbirdə "Əhməd Cavad və Türk Dünyası" adlı kitab da maraqla qarşılanıb.

Tədbir iştirakçılarını salamlayan Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı öncə layihə barədə qısa məlumat verib. Bildirib ki, Azərbaycan Türk Ocağı İctimai Birliyinin təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə nəinki təkcə Azərbaycanın, bütün türk dünyasının münəvvəri, istiqlal və Cümhuriyyət şairi - Əhməd Cavadın 130 illiyi ilə bağlı silsilə tədbirlər keçirilir. A.Aşırlı Ankarada keçirilən konfransın 4-cü tədbir olduğunu qeyd edib: "Öncə Əhməd Cavadın anadan olduğu Şəmkiri ziyarət etdik. Daha sonra Əhməd Cavadı püxtələşdirən, onun həyatına türkçülük və milli ruh, mübarizə əzmi qatan Gəncədə olduq. Gəncə Dövlət Universitetində "Əhməd Cavad və Türk Dünyası" layihəsi çərçivəsində tədbir keçirtdik. Azərbaycanda sonuncu tədbirimiz Bakıda "İstanbul" liseyində baş tutdu". Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri vurğulayıb ki, Əhməd Cavad ruhu, qanı, canı və düşüncələri ilə türk olub. O, öz şeirləri, əsərləri ilə Türk Dünyasının birliyinə çalışıb, milli ruha istiqamət verən böyük bir ziyalıdır, mütəfəkkirdir. Azərbaycan Xalq Cümhuriyyəti dedikdə Əhməd Cavad yada düşür. Məhəmməd Əmin Rəsulzadə Cümhuriyyətində quruluşunda hansı rola sahibdirsə, Əhməd Cavad da Cümhuriyyət poeziyasında eyni çəkiyə, eyni miqyasa sahib bir ədibimizdir. O təkcə Azərbaycanın mütəfəkkir şairi deyil, eyni zamanda türk dünyasının istiqlal şairidir. Əhməd Cavad sadəcə ədib də deyildi, həmçinin savaşçı, hərbçi idi. 1937-ci ildə onu həbs edən zaman dövrün təhlükəsiz xidmətində ondan 1911-1912-ci illərdə harada olduğunu, nə iş gördüyünü soruşurdular. Əhməd Cavad çəkinmədən Türkiyədə olduğunu, Balkan savaşlarına qatıldığını söyləyirdi. Deyirdi ki, bu savaşda öz qan qardaşları ilə bir səngərdə olmağından qürur duyur. Balkan savaşları dönəmində Azərbaycan çar Rusiyasının tərkibində idi. Milli qüvvələr, ziyalılar daim rejim tərəfindən təqib olunurdu. Buna baxmayaraq, Azərbaycan gəncləri "Qafqaz könüllüləri" adı ilə saxta pasportlarla İran üzərindən Türkiyəyə keçərək, Balkan savaşlarına qatılmışdılar".

**Akif Aşırlı vurğulayıb ki, Əhməd Cavadın ulu babası rus işğalçılarına qarşı uzun müddət mübarizə aparmış ən önəmli sərkərdələrdən biri olan Gəncə hakimi Cavad xanın yanında vəzifə sahiblərindən olub:** "Cavad xan son damla qanınadək işğalçılara qarşı vuruşdu, qəhrəmancasına şəhid oldu, rus əsarətinə boyun əymədi. Böyük şairə Cavad adı verilməsinin səbəbi budur. Sadə bir ailədə dünyaya gəlib. Ərəb və fars dillərini, eyni zamanda "Qurani-Kərim"i mükəmməl şəkildə öyrənib. İbtidai təhsilini Gəncədə alıb. Gəncə Azərbaycanın milli-mədəni mərkəzlərindən biri idi, şəhərdə böyük milli mühit var idi. Burada dərs deyən insanların böyük qismi Türkiyədə təhsil almış şəxslər idi. Abdulla Sur və Hüseyn Cavid kimi şəxslər Əhməd Cavadın müəllimləri olub, ona dərs keçiblər. Əhməd Cavadın şair, ziyalı, münəvvər aydın kimi yetişməsində, türkçülük mövqeyində bu müəllimlərin əhəmiyyətli rolu olub".

**A.Aşırlı əlavə edib ki, Əhməd Cavad Birinci Dünya müharibəsi illərində də xüsusi fəallıq nümayiş etdirib:** "O, məşhur "Çırpınırdı Qara dəniz" şeirini Birinci Dünya müharibəsində, Çanaqqala savaşlarında yazıb. "Çırpınırdı Qara dəniz" bütün türk dünyasının ortaq marşı kimi oxunur və sevilir. Birinci Dünya müharibəsində Şərqi Anadoluda erməni-rusların zülmünə məruz qalmış, ev-eşiyini, yaxınlarını itirmiş soydaşlarımız var idi. Əhməd Cavad həmin dönəmlərdə Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin xətti ilə Şərqi Anadoluda evsiz-yurdsuz qalmış qardaşlarımızın Güney Qafqaza, Azərbaycanın müxtəlif yerlərinə gəlməsinə çalışdı. Yetimlər evi açılmasına səy göstərdi. Batumda, Qarsda Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin əsas katiblərindən biri oldu".



**Akif Aşırlı bəyan edib ki, layihə çərçivəsində çap edilmiş "Əhməd Cavad və Türk Dünyası" adlı kitabda Əhməd Cavadın Türk Ocağı ilə əlaqələri, bu istiqamətdə fəaliyyəti öz əksini tapıb:** "İndiyədək Ə.Cavadın Türk Ocağında fəaliyyəti işıqlandırılmamışdı. Biz "Əhməd Cavad və Türk Dünyası" kitabında bu çatışmazlığı aradan qaldırdıq. 1918-ci ilin sentyabrın 15-də Bakı Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad olundu. Azərbaycan Xalq Cümhuriyyəti Gəncədən Bakıya köçürüldü və nəticədə milli təsisatlar, quruluşlar yaranmağa başladı. Həmin dövrdə Əhməd Cavad, Abdulla Şaiq, Abbasqulu Kazımzadə və başqa şəxslərlə birlikdə Azərbaycan Türk Ocağının yaradılması ilə bağlı Cümhuriyyətə rəsmi müraciət ediblər. Böyük ədibin həyatı mücadilələrlə keçib. 1920-ci ildə Azərbaycanda bolşeviklər hakimiyyətə gələn zaman bir neçə dəfə həbs olunub. İşğaldan sonra Azərbaycanı tərk etməyən Əhməd Cavad 1937-ci ildə həbs olunub. Onun həbsindən sonra həyat yoldaşı Şükriyyə xanım da həbs edilib".

Çıxışın sonunda Əhməd Cavadın məşhur "Susmaram" şeiri videoçarx şəklində iştirakçılara təqdim olunub. Daha sonra Azərbaycan Türk Ocağının başqanı Akif Aşırlı tədbir iştirakçılarının suallarını cavablandırıb.

Əhməd Cavadın 130 illik yubileyi ilə bağlı ikinci tədbir noyabrın 8-də İstanbulda Ali Emiri Kültür Mərkəzində Azərbaycan və İstanbul Türk Ocaqlarının, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin birgə təşkilatçılığı ilə reallaşıb. İstanbul Türk Ocağının başqanı, professor Cezmi Bayram tədbirin Türkiyədə həmının əzbər bildiyi, milli marş kimi oxuduğu "Çırpınırdı Qara dəniz" şeirinin müəllifi Əhməd Cavadın 130-cu ildönümü ilə bağlı olduğunu bildirib. Cezmi Bayram konfrans iştirakçılarına Azərbaycan Türk Ocağı İctimai Birliyinin təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə çərçivəsində çap olunmuş "Əhməd Cavad və Türk Dünyası" kitabı barədə də məlumat verib: "Azərbaycan xalqı Qarabağ zəfərinin ikinci ildönümünü qeyd edir. Belə məqamda ömrünü Azərbaycanın istiqlalı yolunda sərf etmiş, bu yolda önəmli mücadilə göstərmiş, hətta savaşlara qatılmış görkəmli bir şəxsin anadan olmasının 130-cu ildönümünü qeyd etmək gözəl təsadüfdür. Əhməd Cavad Azərbaycan milli marşının da müəllifidir. Bu mənada həm bir az milli marşımızın müəllifi Mehmet Akif Ərsoy, bir az da Mehmet Emin Yurdakuldur. O baxımdan Əhməd Cavad bizə yad şair deyil. Osmanlıya, türk dünyasına yardımlar edən bir şəxsiyyətdir. Yəni demək istəyirəm ki, Əhməd Cavad Azərbaycanda doğulsa da, bütün türklərin şairidir. Türk dünyasında, Türkiyədə əsərləri onun qədər bilinən, oxunan, sevilən başqa ədib yoxdur".

Daha sonra söz çıxış üçün Azərbaycan Türk Ocağının sədri Akif Aşırlıya verilib. A.Aşırlı da öncə şanlı Zəfərimizin ildönümündən danışıb. Vurğulayıb ki, hazırda Azərbaycanda 44 günlük Vətən müharibəsinin ikinci ildönümü böyük təntənə ilə qeyd olunmaqdadır. O qeyd edib ki, belə məqamda Azərbaycanın istiqlalı üçün çalışan və canını fəda edən Əhməd Cavadın anılması böyük əhəmiyyət kəsb edir. A.Aşırlı Azərbaycan Türk Ocağı İctimai Birliyinin təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə Əhməd Cavadın 130 illik yubileyinə həsr olunmuş "Əhməd Cavad və Türk Dünyası" layihəsi çərçivəsində silsilə tədbirlər həyata keçirildiyini bildirib: "Tədbirlərimiz Əhməd Cavadın doğulduğu Şəmkirdən başlayıb. Əhməd Cavadın milli məfkurə yolunda ən böyük fəaliyyətinə başladığı Gəncədə davam etdirilib. Sonra Bakı-İstanbul liseyində tədbirimiz olub. Bir neçə gün öncə isə Ankarada Türk Ocaqlarının Mərkəzi Qərargahında konfransımız təşkil olundu. Əhməd Cavad böyük türk mücahidi, istiqlal mücahidi idi. Türkiyə üçün Mehmet Akif Ərsoy hansı məqamdadırsa, Əhməd Cavad da Azərbaycan türkləri üçün o məqamdadır. Əhməd Cavad Azərbaycan istiqlalını tərənnüm etdiyi üçün, Cümhuriyyətin simvollarını şeiriyyətə gətirdiyi və gizlin, sətiraltı mənalarda ifadə etdiyi üçün təzyiqlərə məruz qalıb. Hətta Bakıdan Gəncəyə sürgün edilib. 1937-ci ildə Əhməd Cavad repressiyaya məruz qalır və 46 nəfərlə birlikdə həbs olunur. Ona pantürkist, panislamist ittihamları irəli sürülür. Ə.Cavad ittihamlara mətanətlə dözür, hətta Balkan savaşlarında iştirakını etiraf edir".

*A.Aşırlı qeyd edib ki, Əhməd Cavad kimi şəxslər öz iradəsi, türkçü, turançı və savaşçı mövqeyi ilə Türk Dünyasının birliyi üçün nə lazımdısa ediblər:* "Şeir yazıblar, səngərdə döyüşüblər. Harada onlara ehtiyac olubsa, orada olublar".

Daha sonra yazıçı-dramaturq, filologiya elmləri üzrə fəlsəfə doktoru Aygün Həsənoğlu çıxış edib. Alim bildirib ki, Əhməd Cavadın məzarı olmasa da, o, hər bir türkün qəlbindədir: "Əhməd Cavadı bütünləşdirən, zamandan-zaman keçirən öz xarakterinin yansıdığı şeirləridir. Bəlkə də heç bir şairin xarakteri öz şeirlərinə Əhməd Cavad qədər yansımayıb. Əhməd Cavad Bakı Müsəlman Xeyriyyə Cəmiyyətinin tərkibində türklərin imdadına yetişən aydınlardan biri idi. O, Nargin adasında türk əsirlərin qaçırılmasında çox böyük rol oynayıb, fədakarlıq göstərib. Əhməd Cavadın ən böyük özəlliyi sözü bütöv bir şair olmasıydı. Təkcə Azərbaycan türklərinin deyil, bütün türk dünyasının səsi olmuşdu. Əhməd Cavad bayraq məfhumunu türkün şüur altına yerləşdirən və yüz il boyu bizə bunu təkrarladan bir şairdir. O, rus, sovet zehniyyəti ilə bərabər fars düşüncəsinə qarşı da duruş gətirən, mərdliyini sona qədər qoruyan bir şair idi". A.Həsənoğlu Əhməd Cavad kimi şəxslər haqqında filmlərin olmamasından təəssüfləndiyini ifadə edib. Tədbirin sonunda "Çırpınırdı Qara dəniz" şərqisi səsləndirilib.

**İsmayıl**

# “İran xərab şod...”



**Aqil Şirinov,**
**Azərbaycan İlahiyyat Universitetinin rektoru**

**Məqaləyə qoyduğum başlığı illər öncə öz qızını Türkiyədəki universitetlərdən birinə oxumaq üçün gətirən soydaşımız olan urmiyalı bir professor səsləndirmişdi. Adını xatırlamıram, təsadüfən görüşmüşdük. İranda vəziyyətin necə olduğunu soruşduqda, mənimlə öz Ana dilimizdə danışan professor birdən-birə farsca ”İran xarabaya çevrildi (İran xərab şod)”, - söylədi.**

Bu ifadəni dilinə gətirərkən üzündəki məyusluğu oxumuşdum. Hər dəfə manqurtlaşdırılmış vətən xainləri ”kərimə dövləti”ndən danışdıqda, rejimdən usanmış iranlıların küçələrə axışıb teokratik rejimə üsyanlarını izhar etdikdə professorun bu ifadələrini xatırlayıram.

Bu gün İran, təəssüf ki, böyük bir həbsxananı xatırladır və bu zindanın sahibləri və onların sözlərini ”ilahi kəlam” kimi qəbul edən qaragüruhçular həbsxanalarının fəzilətindən dəm vururlar, onlara bənzəmədiyimiz üçün bizə hədə-qorxu gəlirlər. Yenə təəssüf ki, az da olsa, ölkəmizdə onların təbliğat maşınının qurbanlarına çevrilmiş insanlara rast gəlirik...

İranda 1979-cu ildə Şah rejimi devrildikdən sonra keçirilən referendumda insanların qarşısına, sadəcə, iki seçim qoyulmuşdu: monarxiyanımı, yoxsa ”İslam respublikasını”mı istəyirsiniz? Çox sayda ziyalı və böyük din xadimləri buna etiraz etdilər. Etiraz edənlərin başında Ruhullah Xomeynini edamdan xilas edən və o dövrdə İranın ən böyük din alimi (mərcəyi-təqlid) hesab olunan təbrizli - Azərbaycan türkü ayətüllahil-üzma Seyid Məhəmmədkazım Şəriətmədari (1906-1986) gəlirdi. Şəriətmədari vurğulayırdı ki, İran xalqının qarşısına iki seçim qoymaq doğru deyil, çünki onlar şah istibdadından onsuz da təngə gəliblər və əlbəttə ki, başqa seçimləri olmadığı üçün teokratik rejimi dəstəkləyəcəklər. İnsanlara üçüncü bir yolu, cəmiyyətin bütün təbəqələrinin hüququnun qorunduğu demokratik bir rejimi də təklif etmək lazımdır.

O, həmçinin ”mütləq vilayəti-fəqih” prinsipinə də qarşı çıxıraq deyirdi ki, əgər dövləti din xadimi idarə edərsə, həm özünü, həm də dini hörmətdən salar. Əlbəttə ki, onun təklifləri qəbul olunmadı, əksinə, ev həbsinə atıldı, vaxtilə ölümdən xilas etdikləri qondarma bir ”alimlər birliyi” yaradaraq, heç bir əsası olmadan və şiə məzhəbinin tarixi ənənəsinə zidd olaraq Şəriətmədarinin müctəhidliyinin əlindən alındığını elan etdilər. Bu böyük din alimi Təbrizdə ev həbsində vəfat etdi. Zaman isə mərhum Şəriətmədarini haqlı çıxardı. Bu gün İran xalqı rejimə olan nifrətini dinə və din xadimlərinə çevirib. Sosial şəbəkələrdə hər gün İranın müxtəlif şəhərlərində din xadimlərinin sözlü və fiziki təhqirlərə məruz qaldığını izləyirik. İran cəmiyyəti, artıq get-gedə dindən çox sürətli şəkildə uzaqlaşır. Bax, budur ”İslam rejimi”nin dinimizə ”xidməti”.

Qumdakı elmi-dini hövzənin müəllimlərindən olan Höccətilislam Məhəmməd Zəkai 2022-ci ilin mart ayında İrandakı mövcud vəziyyətlə bağlı öz fikirlərini cəmiyyətlə bölüşdü. Onun fikirləri İrandakı real durumu çox dəqiqliklə və bütün çılpaqlığı ilə üzə çıxarır. Zəkayi belə deyir: ”Son zamanlar virtual məkanda ruhanilərin ölümünün sevinclə qarşılandığı müşahidə olunur. İnsan ölümü ilə bağlı bu sevincin səbəbi nədir? Dünyanın harasında bir ölkənin əhalisi tanımadığı şəxsin ölümünə bu qədər həyəcanlanır?! Bir insanın ölümü sevincə səbəb ola bilərmi? Diqqətlə baxsaq görərik ki, xalqın sevinci insan ölümü ilə bağlı deyildir. Onların şadyanalıqları bir fikrin, radikal bir düşüncənin ölümünə olan sevincdir ki, bu, həmin düşüncəni təmsil edən bir şəxsin ölümünə olan sevincdə özünü büruzə verir. Bu isə həmin inancın gələcəyi üçün çox təhlükəlidir. Çox da uzaq olmayan gələcəkdə, əvvəlki nəsillərin həyatlarını tərk edəcəyi bir vaxtda gənc nəsillər arasında dinə inanmaq əvvəlki kimi populyar olmayacaq. Bu gün insanların bir din xadiminin ölümünə sevinmələri xalqın hakim siyasi ideologiyaya qarşı olan dərin və ürəkdən etirazının ilk əlamətidir. Xalqın böyük hissəsi öz yoxsulluğunun və səfalətinin səbəbini bu ideologiyada (siyasi islamda) görür və hər hansı bir din xadiminin ölümünü sevinclə qeyd edir. Görünən odur ki, din adı ilə aparılan siyasət və hakimiyyət ölkəmizdə dinə və məzhəbə xeyli ziyan vurub. İnsanlar arasında dini inanclardan uzaqlaşmadan hər birimiz artıq xəbərdarıq. Televiziyamızda ancaq dini ictimaiyyət göstərilir, lakin əslində, hamımız bilirik ki, insanların bir çoxunun arasında din deyilən bir amil yoxdur. 43 ildə insanların nəinki etiqadını artıra bilmədik, heç olmasa, mövcud olanı belə saxlaya bilmədik. Milyardlarla büdcə ayıraraq onlarca dini qurum və elmi-dini hövzələr inşa etdik, amma praktikada onların nəticəsi mənfi olmasa da, müsbət olmadı. Çarə düşünməli, əsl İslamla heç bir əlaqəsi olmayan siyasi İslamdan əl çəkməli, xalqın düzgün islami tərbiyəsinin təşkili istiqamətində addımlar atmalıyıq. Bizim təbliğ etdiyimiz əsla İslam dini deyil....” (//negaam.news/617682-2/)

İran rejimi öz xalqının gözündə, artıq legitimliyini itirib. İtirməklə qalmayıb, nə qədər ironik olsa da təəssüf ki, ”İslam” respublikası islami dəyərləri xalqın gözündən salmağa da müvəffəq olub. Həmçinin rejimin xarici siyasəti onu bütövlükdə İslam dünyasında da hörmətdən salıb. İranın 44 günlük Vətən müharibəsindəki mövqeyi bunun bariz nümunəsidir. Özünü ”İslam Respublikası” adlandıran bir dövlət müsəlman qardaşına dəstək olmaq bir yana, Ermənistanın mövqeyini açıq-aşkar müdafiə etdi və bu gün də etməkdədir. Xocalı soyqırımında yüzlərlə müsəlmanı qətlə yetirən, islami dəyərləri təhqir etmək üçün məscidləri donuz tövləsinə çevirən bir ölkənin başçısını ”hacıağa, befərmayid” - deyə salamlayanlar bilməlidirlər ki, Azərbaycan xalqının nifrətini qazandılar. Vətən Müharibəsi İrandan ötrü Azərbaycan xalqının rəğbətini qazanmaq üçün tarixi bir fürsət idi, ancaq İran bu fürsəti dəyərləndirmədi. Halbuki başda Ərdəbilin imamcüməsi olmaqla, İranın təbliğat maşınının sadiq müridləri illərlə bizə üz tutaraq, ”Siz torpaqlarınızı azad edin, biz də sizə dəstək verərik”, - deyirdilər. Əslində, onlar bunu deməklə ”Siz torpaqlarınızı əsla azad edə bilməzsiniz”, - demək istəyirdilər. Azərbaycan xalqı Ali Baş Komandanın başçılığı ilə Ermənistana və onun havadarlarına yaxşı dərs verdi, torpaqlarımızı düşmən tapdağından xilas etdi. Müharibə dövründə ”Sizə dəstək verərik”, - deyənlər ermənilərə himayədarlıq etməklə riyakarlıqlarını nümayiş etdirdilər.

İran Azərbaycanla qonşu dövlətdir. Bu ölkə ilə bizim tarixi bağlarımız var, ən azından, Pəhləvilərə qədər min il ”İran” adlanan ərazini bizim əcdadlarımız, türk sülalələri idarə ediblər. Bu gün İranda 30 milyondan çox soydaşımız yaşayır. Azərbaycan Dövləti bütün bunları nəzərə alaraq, heç vaxt İrana qarşı düşmənçilik mövqeyindən çıxış etməyib. Ölkə başçımız Qarabağın Arazboyu ərazilərinə gedəndə Azərbaycan-İran sərhədini ”dostluq sərhədi” adlandırmışdı. Bu, əslində, müharibədə ermənilərə dayaq duran İrana sözügedən tarixi bağların xatırladılması və Azərbaycan Dövlətinin xoş məramının bir ifadəsi idi. Bu dostluq məramının müqabilində İran rejimindən düşmən münasibəti gördük. İranın televiziya kanalları ölkəmiz və ərazi bütövlüyümüz əleyhinə təbliğata başladı. 28 illik işğal dövründə Qarabağla sərhəddə təlim keçirməyən İran rejiminin, nədənsə, ağlına birdən-birə təlim keçirmək düşdü. Birinci təlimin adı da, fikrimcə, xüsusi seçilmişdi: ”Fatihani-Xeybər”, yəni ”Xeybər fatehləri”. Xeybər Həzrət Peyğəmbər (s) dövründə Ərəbistanda yəhudi qəbilələrinin yaşadıqları bir yer idi. Bu qəbilələr bütpərəst ərəblərlə birləşərək, müsəlmanlara qarşı vuruşmuş, nəticədə Həzrət Əlinin (ə) komandanlığı altında Xeybər qalası fəth olunmuşdu. İslami adları və hadisələri istismar etməkdə pərgar olan İran bu dəfə də guya Qarabağda İsrail bazalarının olduğuna dair yalanlarını ifadə etmək üçün təlimlərinə sözügedən adı qoymuşdu. Son təlimlərində isə Araz çayı üzərində körpü qurulması əməliyyatını keçirərək, guya Azərbaycana mesaj verdilər. Əslində, Azərbaycan xalqı sizin mesajınızı yaxşı anladı.

Xalq olaraq aldığımız mesaj odur ki, illərdir İranda səsləndirilən ”Biz Azərbaycanın dostuyuq” nəqarəti böyük bir yalandan ibarət imiş. İranın, artıq təbliğat maşınının içüzü ifşa olundu, ”Biz İslamın, şiəliyin dayağıyıq” iddiasının puçluğu ortaya çıxdı. İnanclı insanlarımızı aldatma təşəbbüsləri də iflasa uğradı. İndi Azərbaycan müsəlmanları yaxşı dərk edirlər ki, bizə dost olduğunu iddia edən bir dövlətin rəsmiləri müsəlman məscidlərini donuz tövləsinə çevirənləri qucaqlayıb öpürlərsə, ”befərmayid, hacıağa” deyirlərsə, bunun tək bir adı var: riyakarlıq. Bu riyakarlığı 50 milyonluq dünya azərbaycanlıları onlara bağışlamayacaq.

Tarix əksini desə də, biz yenə İranın öz səhvlərindən nəticə çıxaracağına ümid etmək istəyirik. Necə deyərlər, ümid sonda ölür...

# “Rəsmi Moskva İrəvana daha böyük təzyiqlər göstərməlidir”

## Arzu Nağıyev: “Əks halda bunun acı nəticəsini tək region yox, bütün beynəlxalq aləm görəcək”

**“İkinci Qarabağ müharibəsinin dərsləri Ermənistan tərəfindən unudulmamalıdır və onlar bilməlidirlər ki, odla oynamaq onlara baha başa gələcək”.**

**Bunu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxışı zamanı deyib.**

Ölkə başçısı bildirib: ”Əgər orada kimsə - istər iqtidar, istər müxalifət, istərsə də xaricdən göndərilmiş, öyrədilmiş hansısa ünsür yenidən bizə qarşı hansısa bəd fikirdə olmaq niyyətindədirsə, o, bizim yumruğumuzu bir daha görəcək və son iki ilin tarixi bunu göstərdi. Hətta bu il ”Fərrux” əməliyyatı, ”Qisas” əməliyyatı, 13-14 sentyabr Ermənistan-Azərbaycan sərhədindəki hadisələr - bütün bunlar Ermənistan üçün dərs olmalıdır. Biz bu dərsi öyrədirik və ümid edirik ki, nəhayət, onlar bunu anlayacaqlar, boyunlarını büküb öz daxili işləri ilə məşğul olacaqlar, bizim torpağımıza göz dikməyəcəklər, Qarabağa göz dikməyəcəklər. Qarabağ bizim torpağımızdır. Rus sülhməramlılar orada müvəqqəti yerləşiblər, 2020-ci ilin 10 noyabr Bəyanatında onların müddəti göstərilir və əgər kiməsə bel bağlayırlarsa, yenə də faciə ilə üzləşəcəklər”.

**Cənab prezidentin 8 noyabr**



**Zəfər bayramında Şuşadakı çıxışında Ermənistana və onun havadarlarına verdiyi mesajın çox mühüm əhəmiyyət kəsb etdiyini deyən millət vəkili Arzu Nağıyev ”Şərq”ə bildirib ki, bununla revanşıstlər öz yerlərini bilmiş olacaqlar:** ”Bu, ordu quruculuğu ilə bağlı mesaj idi ki, Ermənistanın ordusu haqda yaratdığı mif darmadağın olduqdan sonra yenidən hansısa revanşist ideyaları ortaya çıxarsa, öz qarşısında güclü Azərbaycan Ordusunu görəcəkdir.

Bu gün Azərbaycan Silahlı Qüvvələri ən müasir silahlarla təchiz olunmuş və hibrid müharibəni apararaq 44 günlük Vətən savaşında zəfər qazanmış bir ordudur. Ordunun daha da güclənməsi istiqamətində isə mühüm işlər aparılır.

Həm NATO standartlarına uyğun, həm də digər istiqamətlərdə Azərbaycan Ordusunun formlaşması davam edir və edəcək də”.

Parlamentari qeyd edib ki, buradakı digər məsələ isə iqtisadi proseslərlə bağlıdır: ”10 Noyabr sazişinin imzalanmasına baxmayaraq hələ də ermənilər Zəngəzur dəhlizi ilə bağlı heç bir addım atmayıb. Sözügedən sənədi imzalayan hər bir dövlət rəhbəri öz imzasına hörmətlə yanaşmalıdır. Yeni Kreml bu məsələnin həlli üçün, İrəvana daha böyük təzyiqlər etməlidir. Əks halda bunun acı nəticəsini tək region yox, bütün beynəlxalq aləm görəcək. Çünki biz BMT qətnamələrini hərbi yolla icra edə bilmişiksə, bu istiqamətdə də addım atmaq imkanına sahibik. Ancaq biz hərtərəfli şəkildə sülhün tərəfdarıyıq və delimitasiya məsələsinin həll edilməsini istəyirik.

Bunun üçün isə ciddi addımlar atırıq. Baş nazirlərin müavinləri səviyyəsində aparılan görüşlər, delimitasiya və demarkasiya ilə bağlı komissiyaların apardığı işlər göz qabağındadır.

Bizə aid olan müddəaların hamısı yüksək səviyyədə həll olunur. Sülhün bərqərar olmasında isə bütün tərəflərin əməyi olmalıdır. Yoxsa kimə isə güvənib addımlar atmaq yolverilməzdir.

Onların hansı addımlar atmağına baxmayaraq Qarabağ Azərbaycandır və artıq bu məsələ bitib. Problemlər isə yalnız Ermənistanla Azərbaycan arasında qalıb. Bunun həlli üçün isə addımlar atılacaqdır.

Bütün bunları prezident öz çıxışlarında qəti şəkildə ifadə etdi. Ölkəmizin başçısı Ali Baş Komandan kimi ordunun qətiyyətini göstərərək onun hər bir məsələdə həlledici ola biləcəyindən danışdı və gələcəkdə böyük qayıdışın həyata keçməsi üçün bütün addımların atıldığını dünyaya bildirdi”.

**Nihat Müzəffər**



# Atalıq məzuniyyəti ilə bağlı qanun hazırlanır

## Həkimlərin əməkhaqları məsələsinə də baxılacaq

**“Azərbaycanın 2023-cü il və sonrakı 3 il üçün büdcə layihələri Azərbaycanın 2030-cu ilədək olan sosial-iqtisadi inkişaf strategiyasının müəyyən etdiyi tələbləri özündə əks etdirir”.**

Bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və təhsil, Ailə, qadın və uşaq məsələləri, Səhiyyə və Mədəniyyət komitələrinin birgə iclasında Maliyyə naziri Samir Şərifov deyib. Nazir bildirib ki, 2023-cü il və sonrakı 3 il üçün büdcəsində ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi, Qarabağ və Şərqi Zəngəzurda bərpa və quruculuq işləri, azad olunmuş ərazilərə Böyük qayıdışın təmin olunması kimi strateji hədəflər nəzərə alınıb: ”Eyni zamanda, Rusiya-Ukrayna müharibəsi, bir sıra ölkələrdə milli valyutaların ucuzlaşması, dünya bazarındakı volatillik də nəzərdən keçirilib. 2023-cü il və sonrakı 3 il üzrə dövlət büdcəsi iqtisadi artımı dəstəkləyən, həssas əhali qrupunun sosial müdafiəsi tədbirlərinin maliyyələşdirilməsinə yönəldilib. Prezidentimiz ölkəmizin ordu quruculuğunun daim müasirləşdirilməsini, müdafiə qabiliyyətinin yüksəldilməsini prioritet kimi qarşımıza qoyub”.

**Samir Şərifov deyib ki, atalıq məzuniyyəti ilə bağlı müavfiq qanun layihəsi hazırlanır:** ”Bu qanun layihəsinin maliyyə təminatını biz qiymətləndirməliyik. Bunun əsasında məsələyə baxıla bilər”. Nazir dövlət və özəl xəstəxanalarda həkimlərin maaşlarına fərqli vergi tətbiqinə də aydınlıq gətirib: ”Tibb Universitetində, dövlət və özəl səhiyyə müəssisələrində gəlir vergisində fərqlər müəyyən qərarla tətbiq edilir. Bununla bağlı 2026-cı ilə qədər Vergi Məcəlləsinə dəyişiklik edilib”. Nazir bildirib ki, neft və dövlət müəssisələrində çalışanların maaşları ənənəvi qaydada gəlir vergisinə cəlb edilir: ”Ona görə belə fərq yaranıb. Amma dövlət tibb müəssisələrinin həkimlərinin özəl tibb müəssisələrinə üstünlük verməsi təkcə bununla bağlı deyil. Qəbul edilmiş qərarla 2026-cı ilə qədər özəl və qeyri-neft sektoru işçilərinə güzəşt tətbiq edilib. Bunun məqsədi bizim şəffaflığa getməyimizlə bağlıdır. Özəl tibb müəssisələrində çalışanların gəlirlərini şəffaf şəkildə bəyan etməsi üçün biz buna getmişik. Burada digər tərəfdən, icbari tibbi sığorta sahəsində dövlət sektoruna aid xəstəxanalarda kifayət qədər yüksək maaşlar verilir. İcbari tibbi sığorta sahəsinin tətbiqi ilə əlaqədar bu xəstəxanalarda çalışan həkimlərin əməkhaqqında təxminən 3 dəfə qədər artım baş verib. Tibb Universitetinin korpuslarının maliyyələşdirilməsinin dayandırılması məsələsi qaldırıldı. Tibb Universitetinin Tədris Cərrahiyyə və digər korpusu tikiləndən sonra onlar tədricən özlərini maliyyələşdirəcəkdilər. Onlar da icbari tibbi sığortaya daxil olmaqla orada çalışan həkimlərin də maaşları artmış olub. Onlara müraciət edən xəstələrin tibbi xərclərini İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyindən ala bilərlər”.

> “Bir sıra ürək-damar xəstəlikləri xidmətlər zərfinə daxil ediləcək”

**“Bizim üçün çağırış Böyük Qayıdışın təmin edilməsidir”**

**Samir Şərifov bildirib ki, əsas çağırış Böyük Qayıdışın təmin edilməsidir. O deyib ki, bütün digər sahələrə əvvəlki qaydada vəsait ayırmaqla Böyük Qayıdışın tam və sürətli təmin edilməsində çətinliklə üzləşə bilərik:** ”Ona görə hesab edirəm ki, biz vəsaiti ilk olaraq işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışın təmin edilməsinə, orada məşğulluğun təmin edilməsinə yönəltməliyik. Qarabağın yenidən qurulması prosesi bizim bilavasitə müdafiə qabiliyyətimizin artırılması ilə bağlıdır ki, biz büdcədə müdafiə xərclərini artırırıq. Digər sahələrə də bizim büdcəmiz imkan verdiyi səviyyələrdə vəsait ayrılacaq”.

**“Elmi tədqiqatların maliyyələşdirilməsi üçün mexanizm yoxdur”**

Maliyyə naziri əlavə edib ki, milli inkişaf prioritetlərindən biri təhsildir, bunun üçün dövlət büdcəsindən vəsait ayırırıq: ”Son illərdə bu sahəyə ayrılan vəsaitlər 2 dəfəyə qədər artıb. Vəsaitin böyük hissəsi əməkhaqlarının artırılması ilə bağlıdır. Elm və Təhsil Nazirliyinin qarşısında artıq elmin inkişafı məsələsi də qoyulub. Bunun üçün dövlət büdcəsindən vəsait nəzərdə tutulub. Elmi tədqiqatların maliyyələşdirilməsi üçün xüsusi mexanizm ortaya qoyulmalıdır. Burada müvafiq sifariş ortaya qoyulmalıdır. Bu mexanizm üzrə hələ ki, ortada sənəd yoxdur. Bu təqdim olarsa, həmin tədqiqatların maliyyələşdirilməsi ola bilər”.

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru Zaur Əliyev deyib ki, orqan transplantasiyası ilə bağlı əməliyyatların limiti artırılacaq.** Ürək damar xəstəlikləri ilə bağlı bir çox xəstəliklər də xidmətlər zərfinə daxil ediləcək. O bildirib ki, bu xidmətlər artıq aidiyyəti qurumlarla razılaşdırılıb və yaxın zamanda bunun öz təsdiqini tapmasını gözləyirlər: ”Ürək-damar genişlənməsi əməliyyatları da daxil ediləcək. Hazırda yenilənmiş xidmətlər zərfinin təsdiqlənməsini gözləyirik. Biz başlayanda 27 tibb müəssisəsi ilə müqaviləmiz var idi, indi bu say 92-yə çatıb”.

**Zaur Əliyev bildirib ki, icbari tibbi sığorta üzrə büdcə artır:** ”Onlara ən çox müraciət edilən məsələ əməkhaqlarının artırılması ilə bağlı idi. Bu əməkhaqları artırılmışdı. 2022-ci ildə əksər ixtisaslı həkimlərin əməkhaqları 1000 manat və 1000 manat üzərində müəyyən olunub. Əlavə olaraq da onlar bonuslar alırlar. Yenə də bu məsələyə baxılacaq. Gələcəkdə də bizim vəsaitlərimiz artırılsa, yenə əməkhaqlarının artırılması nəzərdə tutulacaq”.

**“Limitli qaydada orqan transplantasiyasının Xidmətlər Zərfinə daxil edilməsi nəzərdə tutulub”**

**Z.Əliyev bildirib ki, dövlət büdcəsindən ayırmalar 1, 263 milyard manat nəzərdə tutulub:** ”İcbari tibbi sığortanın ümumi gəlirləri 2 milyard manatdır. İşəgötürən və işçilərdən 764 milyon manat, fiziki şəxslərdən 12 milyon 600 min manat daxil olması nəzərdə tutulub. Aksizli mallardan 2023-cü ildə bizə 122 milyon 335 min manat gəlir planlaşdırılır. Bu vəsaitlərin əsas böyük hissəsi tibb müəssisələrinin maliyyələşdirilməsinə gedir. Eyni zamanda xidmətlər zərfinin artırılması ilə bağlı təkliflər var, onlara baxılır. Təkliflər aidiyyəti qurumlarla razılaşdırılır. Xidmətlər zərfinin yenilənməsində orqan köçürmələri nəzərdə tutulub. Təbii ki, bu, limitlidir, il ərzində müəyyən sayda. Endoprotezləşmənin, ürək-damar çatışmazlığı əməliyyatlarının sayının artırılması nəzərdə tutulub. Bundan başqa, oftalmoloji əməliyyatları qeyd etmək istəyirdim. Yeni xidmətlər zərfi artıq aidiyyəti qurumlarla razılaşdırılıb. Biz gözləyirik ki, yaxın vaxtlarda öz təsdiqini tapacaq. Hazırda yenilənmiş xidmətlər zərfinin təsdiqlənməsini gözləyirik. Biz başlayanda 27 tibb müəssisəsi ilə müqaviləmiz var idi, indi bu say 92-yə çatıb”.

**Autizmin müalicəsi tibbi xidmətlər zərfinə salına bilər**

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin direktoru vurğulayıb ki, autizm xəstəliyinin diaqnostikası xidmətlər zərfinə daxildir, amma müalicəsi yox. O bildirib ki, buna baxmaq lazımdır: ”Xəstəxanaların tikilməsi məsələsində tənzimləyici orqan Səhiyyə Nazirliyidir. Bizə də bununla bağlı müraciətlər daxil olanda bunları Səhiyyə Nazirliyinə təqdim edirik. Müzakirələrdə ambulator tibb müəssisələrinin təmiri məsələsi qaldırılıb. Səhiyyə Nazirliyi xəstəxanaları investisiya büdcəsi hesabına təmir etdirir. Biz də təbii ki, əsaslı təmir və ya cari təmir işlərində tibb müəssisələrinə dəstək oluruq. Növbəti ilin büdcəsində də bu işlər üçün əlavə 40 milyon manat vəsait nəzərdə tutulub”.

**“Həkimlərin maaşları ilə bağlı hökumətə layihələr təqdim olunub”**

Səhiyyə nazirinin müavini Rasim İsmayılov deyib ki, əsas narahatlıq doğuran məqamlardan biri səhiyyə sahəsində əməkhaqqı ilə bağlıdır”. O bildirib ki, onkologiya, narkologiya və psixatriya sahəsində həkimlərin maaşının artırılması üçün hökumətə layihə təqdim ediblər: ”Onların əməkhaqlarının reallığa uyğunlaşdırılması üçün hökumətə layihə təqdim etmişik”. Nazir müavini bildirib ki, dövlət xəstəxanalarında işləyən həkimlərin maaşlarından vergi tutulmaları bu gün çox ciddi məsələdir: ”Müvafiq qurumlardan xahiş edirik ki, bu məsələyə xüsusi həssaslıqla yanaşılsın. Bu gün özəl və dövlət tibb müəssisələrində çalışan həkimlərin əməkhaqqından vergi tutmalarında ciddi fərq var. Bu fərqin aradan qaldırılması üçün layihə hazırdır və hökumətə təqdim olunub. Tibb Universiteti də bu qəbildəndir. Tibb Universitetində gələcək həkimlər hazırlanır, ora təkcə müalicə mərkəzi deyil”.

**İsmayıl**




# Azərbaycan XİN tvitterdə yaydı

## Mustafa Kamal Atatürkü dərin hörmətlə anırıq

**Bu gün qardaş Türkiyə Cümhuriyyətinin qurucusu, Qazi Mustafa Kamal Atatürkün vəfatının 84-cü ildönümüdür.**

Bu barədə Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) tvitter hesabında yazılıb.

”Əziz xatirəsi qardaş xalqlarımızın yaddaşında əbədi yaşayan böyük dövlət xadimi, sərkərdə və siyasətçi Mustafa Kamal Atatürkü dərin hörmətlə anırıq”, - paylaşımda bildirilib.

*Qeyd edək ki, Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk 1881-ci ildə Selanikdə doğulub, 10 noyabr 1938-ci ildə İstanbulda vəfat edib.*

# NATO Azərbaycan Ordusunun hərbçiləri üçün təlim kursu keçirir

**NATO-nun Brunssumda yerləşən Birləşmiş Qüvvələr Komandanlığının Mobil təlim qrupu tərəfindən Hərbi İdarəetmə İnstitutunda ”NATO-da operativ səviyyədə əməliyyatın qiymətləndirilməsi” təlim kursu keçirilir.**

MN-dən “Şərq”ə verilən məlumata görə, təlimin ilk günündə Azərbaycan Ordusunun müxtəlif qoşun növlərindən olan hərbi qulluqçularımıza mobil təlim qrupunun nümayəndələri tərəfindən ”NATO və hərbi əməkdaşlıq”, ”NATO-da əməliyyatların planlama prosesi”, ”NATO-da əməliyyatların qiymətləndirilməsi”, ”NATO-da əməliyyatların analiz sistemləri” və digər mövzularda brifinqlər təqdim olunub.

Noyabrın 12-dək davam edəcək kursda iştirak edən dinləyicilərə aidiyyatı mövzular barədə məlumatlar veriləcək və müxtəlif məşğələlər təşkil ediləcək.

# Fransa Azərbaycana yeni səfir təyin edib

**Fransa Azərbaycana yeni səfir təyin edib.**

”Report” Fransanın hökumət portalına istinadən xəbər verir ki, Fransa Prezidenti Emmanuel Makron noyabrın 9-da müvafiq sərəncam imzalayıb.

Bildirilib ki, Ann Buayon (Anne Boillon) bundan sonra Fransanın Azərbaycandakı səfiri kimi fəaliyyət göstərəcək.

O, bu vəzifədə Zakari Qrossu əvəzləyəcək.

A.Buayon bundan əvvəl Fransanın Avstraliyanın Sidney şəhərində baş konsulu işləyib.

*Qeyd edək ki, Z.Qross 2019-cu ildən Fransanın Azərbaycandakı səfiri vəzifəsində çalışırdı. Onun ölkəmizdəki diplomatik missiyası bu ilin sentyabrında başa çatıb.*

# “Mədəniyyət Nazirliyində gündə bir əməliyyat keçirilir”

## Sabir Rüstəmxanlı: “Ayrılan vəsaitin nəticəyönümlülüyü araşdırılmalıdır”






**“Büdcədə dövlət proqramlarının nəticəyönümlülüyünə diqqət artırılmalıdır”. Bunu Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva deyib. Deputat bildirib ki, mədəniyyət sahəsində bir çox dövlət proqramlarının icrası bitib. Amma biz proqramlar bitdikdən sonra görürük ki, bəzi məsələlər öz həllini tapmayıb:**

”Mədəniyyətin bir çox sahələri var ki, o sahələrdə əməkhaqları çox aşağıdır, stimullaşdırıcı tədbirlər yoxdur. Ona görə bu sahələrə gedən adamların sayı azdır. Güzəştli ipotekadan yararlanan gənclər sırasına mədəniyyət sahəsinin bir sıra yerlərində çalışan gənclərin də daxil edilməsini təklif edirəm. Bir çox bölgələrimizdə tarix və mədəniyyət abidələrimizin restavrasiya və bərpası gecikir. Zaman itkisi onların bərpasında çox ciddi problemlər yaradır. Büdcədən buna vəsait ayrılması mümkün deyilsə, özəl şirkətlərin, iş adamlarının bu sahəyə cəlb edilməsi üçün addımlar atılsın”. Komitə sədri qeyd edib ki, azteminatlı insanlarımız qida məhsullarının artımlarının diqqətdə saxlanmasını istəyirlər: ”Dərman məhsullarının qiyməti çox yüksəkdir, uşaq bezləri və yeməklərinin qiymətlərinin aşağı salınması istiqamətində təkliflər səsləndirirlər. Onkoloji xəstəliklər, autizm, süni mayalanmanın da icbari tibbi sığorta ilə əhatə olunmasını təklif edirəm”.

**Millət vəkili Sabir Rüstəmxanlı da deyib ki, mədəniyyət sahəsinə büdcədən ayrılan pul artırılmalıdır. Deputat bildirib ki, xalqlar təkcə vuruşmur, onların tarixi, mədəniyyəti də vuruşur:** ”Milli Kitabxanaya ayrılan vəsait azaldılıb. Bunun səbəbi nədir?! Mədəniyyət sahəsi dövlətdə ikinci sahə kimi qiymətləndirilməli və buna uyğun vəsait artırılmalıdır. Mədəniyyət Nazirliyinə ayrılan vəsaitin nəticəyönümlülüyü araşdırılmalıdır. Verilən vəsaitlərin nəticəsi tələb olunmadığına görə Mədəniyyət Nazirliyində gündə bir əməliyyat keçirilir, bir müavin tutulur”. S.Rüstəmxanlı kənd təsərrüfatı sahəsində problemlərdən bəhs edib: ”Subsidiya ildən-ilə artırılır. Amma bunların nəticəsi ortada yoxdur. Digər tərəfdən, rayonların idarələri birləşdirilir. Üç-dörd rayonun idarələri birləşdirilir. Dövlət bundan nə qazanır? Gedirsən dağlıq bir rayonda təkcə icra başçısı oturur, amma qurumlar? İdarələr hərəsi bir diyarda. Onda bu rayonları da ləğv edək”. Deputat doğulan uşaqlara görə büdcədən vəsait verilməsini təklif edib: ”Rusiyada doğulan hər uşağa görə nə qədər vəsait verilir. Biz niyə vermirik, bəyəm bizim gücümüz yoxdur? Özləri deyir ailə planlaması edin, çoxuşaqlılığın qarşısı alınır. Doğulan 1-2 uşağa da dövlət dəstək göstərmir”.

**İsmayıl**

# Bakıda ailə faciəsi

## İki azyaşlı siçan dərmanından zəhərlənib öldü



**Bakıda bir ailədə faciə baş verib. Sabunçu rayonunda yaşayan ailələrdən birinin iki azyaşlı övladı siçan dərmanından zəhərlənərək ölüb.**

Məlumata görə, iki qardaş siçan dərmanını şirniyyat bilib qəbul edib. Dərmandan zəhərlənən azyaşlılar xəstəxanaya çatdırılsa da, onların həyatını xilas etmək mümkün olmayıb.

Faktı Baş Prokurorluğun mətbuat xidməti təsdiqləyib. Bildirilib ki, faktla bağlı Sabunçu rayon prokurorluğunda araşdırma aparılır.

# Vəfat edən şəxs olmayıb

## 8 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 8 yeni yoluxma faktı qeydə alınıb, 49 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış vəfat edən şəxs olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 823 592 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 813 454 nəfər müalicə olunaraq sağalıb, 9 957 nəfər vəfat edib, aktiv xəstə sayı 181 nəfərdir.

Ölkədə son sutka ərzində 1 402, hazırkı dövrədək isə 7 339 257 test aparılıb.

# Bizi ən çox xilas edən maskalar oldu

## Son illər vərəm xəstələrinin sayında da azalma müşahidə edilir

**Afət Novruzova:**

“Ölkəmizdə yoluxma saylarının az olmasına baxmayaraq, əhalini ayıq-sayıq olmağa dəvət edirəm”

**“Fevral ayından indiyədək COVID-19 infeksiyası səbəbindən ölüm sayı 90 faiz azalıb”.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) rəhbəri Tedros Adhanom Qebreyesusun sözlərinə görə, son həftə ərzində 9,4 mindən çox ölüm qeydə alınıb, fevralda isə həftə ərzində ölüm nisbəti 75 min civarında dəyişib: ”Biz uzun bir yol qət etmişik və bu, həqiqətən də nikbinlik üçün səbəbdir. Lakin biz hökumətləri, icmaları və bütün insanları ayıq-sayıq olmağa çağırırıq”, - Qebreyesus deyib. Pandemiyanın başlanğıcından indiyədək dünyada 629 milyon yoluxma, 6,5 milyon ölüm faktı qeydə alınıb.

**Azərbaycandakı koronavirusla bağlı real vəziyyəti dəyərləndirən həkim-infeksionisti Afət Novruzova hazırda dünyada və Azərbaycanda COVID-19 infeksiyasına yoluxmanın davam etdiyini deyib. İnfeksionistin sözlərinə görə, 2020-2021-ci illə müqayisədə aqressiv olmasa da, hələ də virus öz aktuallığını itirməyib:** ”Pandemiya dövründən indiyə qədər xəstələrin sayı ən aşağı səviyyədədir. Düzdür bəzən xəstəliyi yüngül keçirənlər müraciət etmir və statistika real rəqəmi tam göstərmir. Amma vəziyyət normaldır. Koronavirusun yeni mutasiya olunmuş ştamları meydana gələ bilər. Bunun necə olacağı məlum deyil. Ona görə də beynəlxalq təşkilatlar pandemiyanın bitdiyini hələ elan etməyib.

Hazırda dünyanın bəzi ölkələrində - Afrikada, Amerika qitələrində COVID-19-a yoluxma saylarında artım var. Azərbaycanda isə cari vəziyyət çox dəyişkəndir. Yoluxanların sayında gah artım, gah da azalma qeydə alınır. Ölüm halları çox az hallarda müşahidə edilir. Dünyadakı vəziyyət də nəzərə alınaraq Nazirlər Kabinetinin Qərarı ilə karantin rejimi gələn il yanvarın 1-dək uzadıldı. Ölkəmizdə yoluxma saylarının az olmasına baxmayaraq, əhalini ayıq-sayıq olmağa dəvət edirəm. Əks-epidemik tədbirləri davam etdirməyi, gigiyena qaydalarına əməl etməyi tövsiyə edirəm. Ən birinci növbədə maskalardan istifadə etmək lazımdır. Xüsusilə də özündə respirator əlamətlər hiss edənlərin vətəndaş məsuliyyəti hiss etməsi daha məqsədəuyğundur. Maska taxmaq təkcə koronavirusdan deyil, digər yoluxucu xəstəliklərdən də qorunmağa kömək edir. Təcrübəmdən görürəm ki, son illər vərəm xəstələrinin sayında da azalma müşahidə olunur. Bunun da səbəbi maskalardan istifadə olunması, o cümlədən kütləvi toplanma hallarında qaydalara riayət olunması, gigiyena tədbirlərinin tətbiqidir. Vətəndaşlara hər zaman tövsiyə olunan qızıl qaydalara riayət etmələri məsləhət görülür. İmmun sistemini gücləndirmək üçün bol maye qəbulu, qidalanma rejiminə xüsusi fikir verilməsi, meyvə-tərəvəz qəbulunun artırılması vacibdir. Əsəb sistemi qorunub saxlanılmalı, yuxu rejimi normal olmalıdır. Bədən temperaturunun nəzarətdə saxlanılması, dəyişiklik olan kimi tədbir görülməsi məsləhət görülür. Bu zaman xüsusilə qızdırmasalıcılardan istifadə olunması, bol maye qəbul edilməsi tövsiyə olunur. Çünki bol maye qəbul edilməsi virusun az zədə törətməklə bədəndən xaric olunmasına imkan yaradır. Antibiotiklərin istifadəsi məsləhət görülmür. Hərarət beş gündən çox davam edərsə və yaxud xəstəni narahat edən başqa səbəblər olarsa, mütləq həkimə müraciət etmək tövsiyə olunur”.



Maska taxmaq təkcə koronavirusdan deyil, digər yoluxucu xəstəliklərdən də qorunmağa kömək edir

**İnfeksionistin sözlərinə görə, xəstəni müalicə etməkdənsə, xəstəliyin qarşısını almaq daha münasibdir. Çünki xəstəliyin qarşısını almaq minlərlə insanı həmin virusdan, xəstəlikdən qorumaq deməkdir:** ”Bu illər ərzində gördük ki, yoluxanların bir qismi həyatını itirdi, bir qismi ömürlük şikəst qaldı, bəzilərinin müəyyən həyati funksiyaları zəiflədi. Mənəvi stress, qorxu yaşanmasın deyə xəstəliyin qarşısını almaq daha səmərəlidir. Əhali əks-epidemik tədbirləri daha düzgün yerinə yetirərsə, peyvəndləmədə daha aktiv iştirak edərsə, virusla mübarizədə üstünlüyümüzü qoruyub saxlaya bilərik. Xüsusilə risk qrupuna aid olanlar həmin qaydalara daha ciddi əməl etməli və peyvəndləmədən qəti yayınmamalıdırlar”.

**Şəymən Bayramova**



# Cəmiyyət yenə böləndü

## Rəşad Dağlıdan bir yazar, bir sosioloq danışır

**Qətl törətməkdə şübhəli bilinən meyxanaçı Rəşad Dağlı ilə bağlı cəmiyyət, yenə də yekdil mövqe sərgiləyə bilmədi. Cəmiyyəti təşkil edən insanların müxtəlif fikirdə, müxtəlif mövqedə olması təbiidir. Hətta məsələ qətl, insan ölümü olsa da. Qətlin niyə baş verdiyi, hansı səbəblərdən qaynaqlandığı, ölənin, öldürənin kimliyi hər bir detal insanlarda fikir müxtəlifliyi yaradır. Qətlə bəraət qazandırmağa çalışanlarla yanaşı, heç bir səbəbin insan ölümünə bəraət qazandırmadığını iddia edənlər də var.**

Məsələ belədir; Ölkədə kifayət qədər məşhur, sevilən meyxanaçı Rəşad Dağlı - Rəşad Əmirov şəxsi münasibətlər zəminində qonşusu İskəndər Mehtiyevi aralarında yaranmış münaqişə zamanı bıçaqla çoxsaylı xəsarətlər yetirərək qəsdən öldürməkdə təqsirli bilinir. Şəxsi münasibətlər zəmininin nədən ibarət olduğu, hələ ki, dəqiq bilinmir. Gah deyilir, söyüşə görədir, gah Rəşadın narkotik maddə satışı və təbliğatına qarşı çıxmasına görə, hətta İran amili də ortaya atılıb. Guya, R.Dağlı İran ali dini liderini qəbul etmirmiş, İran xüsusi xidmət orqanları da ona komplo qurub. Deyilənə görə, meyxanaçı bir müddət əvvəl iştirak etdiyi bir məclisdə narkotik satanları meyxana diliylə təhqir edib. Bu isə İskəndər Mehtiyevin xoşuna gəlməyib və o, Rəşadın arxasınca söyüb. Bunu eşidən meyxanaçı da səhər saat 5 radələrində özünün "NİVA" markalı avtomobilində İ.Mehtiyevlə görüşüb. Aralarında yaranan mübahisə zamanı Rəşad İskəndərin ürək nahiyəsinə 9 bıçaq zərbəsi vurub. Nəticədə o, ölüb. Qətli törədən Rəşad Dağlı isə könüllü Yasamal polisinə gələrək təslim olub. İskəndər Mehtiyev kimdir? İ.Mehtiyevin 15 gün əvvəl həbsdən çıxdığı bildirilir. O, Cinayət Məcəlləsinin 234.4.3-cü (külli miqdarda narkotik vasitələrin qanunsuz dövriyyəsi) maddəsi ilə ittiham olunaraq, həbs edilibmiş. Həmçinin İ.Mehtiyevin digər məşhur meyxana ustası Ələkbər Yasamallının dayısı oğlu olduğu da bildirilir. Bu da bildirilir ki, İ.Mehtiyev cəmi bir neçə gün əvvəl azadlığa çıxıb.

Hazırda Qaradağ Rayon Prokurorluğunda qətllə bağlı araşdırmalar davam edir. Şübhəsiz, qətlin mahiyyəti istintaq zamanı məlum olacaq. R.Dağlının hansı cəzaya məhkum edildiyi də bilinəcək. Ona qədərsə, cəmiyyətimiz, həmişəki kimi, "sağa-sola" dalğalanacaq. Meyxana sənətini sevməyənlər "deyirdik, bu meyxananın bir gün hoqqası çıxacaq, inanmırdınız", söyləyərək şifahi xalq ədəbiyyatının geniş yayılmış bu qolunun heç bir işə yaramadığını, gənclərin tərbiyəsini pozduğunu sübut etməyə çalışacaq və bolşevik təfəkkürünün işartıları özünü göstərəcək: qadağan edilsin, bağlansın, dışlansınlar!.. Guya ki, qətl törədənlər yalnız meyxanaçılardır. Qətl törətmək yalnız meyxanaçılara xasdır. Cəmiyyət hər gün neçə-neçə qətl haqqında məlumatlar alır. Ata-anasını, həyat yoldaşını, oğlunu-qızını, müdirini, qohumunu, yadı qətlə yetirənlərin hamısı meyxanaçı deyil. Bəzən müəllim də qətl törədir. Alim də. Həyat dediyimiz mürəkkəbdən də mürəkkəbdir. Təbliğat isə tamam başqadır. Təbliğat xeyirli də ola bilər, zərərli də. Baxır, dirijor çubuğu kimin əlindədir və hansı təbəqəyə yol göstərir. Qətiyyən meyxana aşiqi olmayan biri kimi yazıram: bəyənmədiyimiz meyxana





**Şərif Ağayar:**
"Heç nə insan öldürməyə bəraət qazandırmır. Hətta vətən, millət, azadlıq, namus adı ilə də öldürməyin doğru olmadığını düşünürəm. Söyüş üçün öldürmək isə, sadəcə, biabırçılıqdır"

**Əhməd Qəşəmoğlu:**
"Onu bilirəm ki, bu hadisə bütün meyxana sənətinin gələcəyini sual altında qoydu"

"Bizim Cəbiş müəllim" filmində də var. "Çağırdı ellər gedərəm davaya ". Bəyənmədiyimiz meyxananın ustadı sayılan, qəzəlxan şairimiz Əliağa Vahidin məhz "Vahid, sorma Vətən nədən yaxşıdır, Adı gəlcək, könül xəndan göründü", misrasının yer aldığı məşhur qəzəlinə bəstələnən mahnı şəhid Xudayarın təkrar ifasında 44 günlük Vətən müharibəsinin az qala rəmzinə çevrildi. Mərhum Nizami Rəmzi vardı, ötən əsrin gəncləri yaxşı xatırlayar. Azərbaycana necə gözəl meyxanalar qoşmuşdu; "Can necə tərk eyləsin ey can səni, çünki canın canısan ey canımız", "gəlin qoşaq Bakıya təzə qafiyə", deyib oxuyardı. Həmçinin mərhum qəzəlxan-şair, füzulişünas Hacı Mail vardı. Və adını çəkə bilmədiyim onlar kimi başqaları. Və əlbəttə, bəyənməməkdə özümüzü haqlı saydığımız ifalar da var. Məsələ janrda deyil, onu necə təqdim etməkdə və hansı məqsədə yönəltməkdədir. Meyxana cəmiyyətdəki əskiklikləri güzgü kimi göstərə də bilər, zərərli olanı təbliğ etməklə cəmiyyəti dalana da dirəyər. Əgər hansısa meyxanaçı cəmiyyətin böyük bəlasına çevrilmiş narkotik maddəni, hansısa zərərli davranışları təbliğ edirsə, (bir müddət əvvəl bu səpkili video yayanlar DİN tərəfindən saxlanıldı) bu şəxslər tapılmalı, məsuliyyətə cəlb edilməlidir. Məsələ burasındadır ki, Rəşad Dağlı hadisəsində meyxanaçının öz ifasıyla narkotik maddə satışını tənqid etdiyi deyilir. Və bildirilir ki, guya, ifaçı ilə sonradan qətlə yetirəcəyi şəxs arasında mübahisə bu zəmində yaranıb. Yenə də həqiqətin istintaq zamanı məlum olacağına ümid edək.

Rəşad Dağlı hadisəsinə narkotik maddənin, yaxud meyxananın bəlası kimi baxaq, yoxsa İran xüsusi xidmət orqanlarının? Bəlkə fərdin düzgün formalaşmaması, şəxsiyyətin özünü təsdiqə can atması?

Bir yazar və bir sosioloq mövqeyini verəcəyik.

**Yazıçı Şərif Ağayar:**

"Heç nə insan öldürməyə bəraət qazandırmır. Hətta vətən, millət, azadlıq, namus adı ilə də öldürməyin doğru olmadığını düşünürəm. Söyüş üçün öldürmək isə, sadəcə, biabırçılıqdır. Rəşad Dağlı kimi çox istedadlı birini bu addımı atmağa vadar edən intellektdən uzaqlıq, kitabdan cüda düşmək, müasir mədəniyyətdən bixəbərlikdir. Lakin bu məsələdə onun ətrafının, düşdüyü mühitin də rolu böyükdür. Rəşad qəzəlxan kimi, şair kimi kütləyə lazım deyildi, ona yalnız düşük meyxanalarla boş qafaları danqıldatmaq üçün pul verirdilər. Bu zəka sahiblərinin kumirinə çevrilmək, yaxud birinciliyi əldə saxlamaq üçün hökmən sözü və yaradıcılığı başlı-bütünlü istisna edən kriminal avtoritet moduna girməlisən. Rəşad Dağlı da özünü mütləq belə aparmalı, yaxud belə biri olduğuna mütləq inandırmalı idi. Bu da axırı. Qəti şübhə eləmirəm ki, Məryəmin tərtəmiz olduğunu bir Allahı bilib.

Ona çox tənə gəlib Həzrəti-İsaya görə,

beytini yazan adam kamerada tək qaldığı vaxt başını divara döyüb ağlayacaq. Bax, mən o başını divara döyüb ağlayan Rəşad Dağlını birinci özünün, ikinci qəddar ətrafının, üçüncü isə işləməyən Azərbaycan qanunlarının əlindən alıb elə adını zikr etdiyi o Allaha tapşırmaq istəyirəm. Günahından keçsin və onu qorusun.

Səbəb nə olur-olsun, istedadın qürubu kədərlidir".

**Sosioloq Əhməd Qəşəmoğlu:**

- Ölkədə sosial-humanitar sahədə təkmilləşməyə ehtiyac var. Buna böyük ehtiyac olduğu halda, bu siyasət düzgün qurulmayıb. Eybəcər hadisələr məktəblərdə də baş verir, universitetlərdə də, incəsənətdə də. Gündən-günə həssaslaşan cəmiyyətimizdə hadisələrə 20 il əvvəlki qaydа və təfəkkürlə yanaşmaq olmaz. Cəmiyyətin özü müxtəlif komplekslər yaradır. Mühit sağlam olmalıdır ki, mənfilər bloklansın, müsbətlər inkişaf etsin. Mühit sağlam olmadıqda mənfilər yayılır. Biri deyir, gəlin, meyxananı qadağan edək. Anlamırlar ki, bu cür yanaşma cəmiyyətdə gərginliyi, aqressiyanı daha da artırır. Və aqressivləşmiş sosial təbəqənin başqa əllərə keçməsinə şərait yaradır. Sanki özümüz kimlərəsə dəvət göndəririk ki, "gəlin, bu insanlara sahib çıxın". Sonra da bu təbəqədən bizə qarşı istifadə etməyə başlayırlar. Elə telekanallar vardı, səhərdən-axşamadək meyxananı təbliğ edirdi, yarışma təşkil edirdi, niyə o zaman bunun qarşısı alınmırdı?!. Nəhayət, bu həqiqəti anlamalıdırlar ki, cəmiyyət fərdi istəklərlə deyil, elmin diktə etdiyi yolla inkişaf etməlidir. Bunu mən - Əhməd Qəşəmoğlu demir, bunu sosiologiya elmi deyir. Cəmiyyət günü-gündən pozulur. Bunun qarşısını almaq üçün ciddi elmi mərkəzlər olmalıdır.

Bu arada, meyxanaçı Rəşad Dağlıya dəstək paylaşımları davam edir. Sənət dostları ifaçıya "Instagram" hesabında dəstək mesajları verir, onun haqqında paylaşım edərək sosial şəbəkə hesablarında ifaçıya dəstək olurlar. Rəşad haqqında paylaşımlar edənlər müğənnilər Damla, Rəqsanə İsmayılova, Xatun, Nəfəs, Nazənin, aktyor Ənvər Abbasov, repçi Paster, blogger Aysel Şükür, meyxanaçılar Pünhan Piriyev, Orxan Lökbatanlı, Rüfət Nasosnu, Balaəli, Tərlan Novxanı və başqa tanınmışlardır.

**Meyxanaçı, senarist Pərviz Arif deyib ki, Rəşad Dağlı meyxana sənətinin sütunu idi:** "Baş verən hadisənin təfərrüatlarını bilmədiyim üçün geniş nəsə deyə bilmərəm. Bir onu bilirəm ki, bu hadisə bütün meyxana sənətinin gələcəyini sual altında qoydu. Rəşad Dağlı bizim üçün təkcə yaxşı həmkar, yaxşı dost deyildi. Həm də özümüzün xiridar kimi dinləyib zövq aldığı sənətkar idi. Bir çox sənət yoldaşı ilə sadəcə, məlumatların həqiqiliyini öyrənməklə bağlı danışmışıq. Əlavə məlumatım yoxdur. Allah köməyimiz olsun".

**Pərviz Bülbüləli sosial şəbəkə hesabında Rəşad Dağlı ilə fotosunu paylaşaraq, bu sözləri əlavə edib:** "Ağlımın ucundan da keçməzdi ki, səninlə paylaşdığım şəklin şərhində "Allah fərəc versin" yazaram. Allah qapını açsın, şair...Hər ağızda bir Amin var".

**Rəşadın yetirməsi olan meyxanaçı Cahangeşt Balaxanı da ürək sözlərini belə ifadə etdi:** "Allah özü sənə yar olsun, qardaşım. Sənin necə insan olduğunu səninlə şəxsi tanışlığı olmayan insan sərrafları da yaxşı bilir. Dualarımız səninlədir. Tezliklə görüşmək ümidi ilə ...".

**Rəşadın sənət dostu Nicat Mənalı da ona dəstək verənlərdən oldu:** "Çox üzücü xəbər oldu, qardaş. Allah şeytana lənət eləsin. Tezliklə ailənin, balalarının yanında görək. Çoxları aramızdakı aqressivliyi bilsələr də, biz həmişə özümüzə hörmətimizi, etibarımızı saxlamışıq. Allah köməyin olsun".

**Meyxanaçı Xosrov Maştağalı "Allah qapını açsın, şair.** Sevinənlərin başına gəlsin. "Drillaylar" axır ki, çatdılar arzularına" - deyə, paylaşım edib.

**Meyxana ifaçısı Ağa Maştağalı da Rəşada öz dəstəyini paylaşımla ifadə edənlərdəndir. Həmçinin, meyxanaçı Fariz Bərdəli də təəssüratlarını belə bildirib:**

"Allah qapını açsın, qardaş. Səni həmişə ailənin başında, balalarının yanında görək!".

Bundan başqa, meyxanaçının sənət dostu insanları yayılan dezinformasiyalara inanmamağa çağırıb: "Rəşad həm gözəl qardaşdır, həm də hər zaman cavanları zərərli maddələrdən yayınmağa çağırıb. İnşallah, tezliklə həbsxanadan azadlığa çıxsın. Bu məsələ ilə bağlı çox şey bilmirəm və məsləhətimdir ki, hər deyilənə də inanmayın. Dediyim də odur ki, dərd, kədər çəkən ailələr oldu. Allah onlara da kömək olsun".

*Meyxanaçının oğlu isə belə bir paylaşım edib:* "Atamı tələyə saldılar. Çox sağ olun, dəstəyinizə və dualarınıza görə. Bizimki də buraya qədərmiş".

**Məlahət Rzayeva**

# İran proseslərə qarışmamalıdır



## "Bu mesajların məhz Şuşadan verilməsi isə Azərbaycanın qərarlılığını göstərir"

**Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyev noyabrın 8-də Şuşada hərbçilər qarşısında çıxış edib.**

Ölkə başçısı bildirib ki, Ermənistana dəstək olaraq hərbi təlim keçirənlər də bilsinlər ki, biz heç kimdən qorxmuruq: "Bir sözlə, müharibədən keçən iki il ərzində biz öz siyasətimizi davam etdirmişik. Biz iki il ərzində böyük quruculuq işləri görmüşük, Qarabağı və Şərqi Zəngəzuru faktiki olaraq yenidən qururuq və quracağıq.

Eyni zamanda, Ordumuzu gücləndiririk və gücləndirəcəyik. Ermənistan bilməlidir ki, bizi indiki çərçivələrdə saxlayan Ermənistanın hansısa havadarının bəyanatı deyil, bizim öz siyasətimizdir. Biz heç kimdən qorxmuruq, heç kimdən çəkinmirik.

Əgər biz kimdənsə qorxsaydıq, heç vaxt İkinci Qarabağ müharibəsinə start verməzdik. Biz hər birimiz ölümə gedirdik, öldü var, döndü yoxdur, ya azadlıq, ya ölüm! İndi də ölümə getməyə hazırıq öz haqlarımızı tələb edərək. Çünki hələ də, - müharibə iki il bundan əvvəl başa çatsa da, - narahatedici məqamlar var və erməni xalqına müraciət edib sözümü demək istəyirəm.

Onlar bu otuz ilin işğalının acılarını indi görürlər. İşğal nədir, itki nədir, indi görürlər. Biz, sadəcə olaraq, onlara cavab vermişik, biz öz torpağımızda vuruşmuşuq, işğalçını torpaqlarımızdan qovmuşuq. Onlar bunu anlamalıdırlar ki, xaricdə oturan və bu bölgəyə bir oyun meydançası kimi baxmaq istəyən dairələrin qurbanına ikinci dəfə çevrilməsinlər. Biz burada əsas söz sahibiyik, biz burada əsas güc sahibiyik. Bizim Ordumuz qəhrəmanlıq, peşəkarlıq, fədakarlıq göstərib. Lazım olarsa, bir daha göstərərik, istədiyimizə nail olarıq, bunu hər kəs bilir və bizim sərhədimizdə Ermənistana dəstək olaraq hərbi təlim keçirənlər də bilsinlər.

Bizi heç kim qorxuda bilməz. Ermənistan yaxşı qonşuluq siyasəti aparmaq istəyirsə, birincisi, 2020-ci ilin 10 noyabr Bəyanatının bütün müddəalarını yerinə yetirməlidir. Azərbaycanla sülh üzrə aparılan danışıqlarda səmimi olmalıdır. Süni şəkildə vaxt uzatmamalıdır, hansısa möcüzəni gözləməməlidir ki, kimsə gəlib bunların yerinə vuruşacaq. Heç kim gəlib onların yerinə vuruşmayacaq, gəlib vuruşsa da, qarşısında yenə də Azərbaycan Ordusunu görəcək".

**Çıxışın birbaşa İrana ünvanlandığını deyən Türkiyədə yaşayan tanınmış azərbaycanlı alim, Ankara Universitetinin professoru, siyasi şərhçi Toğrul İsmayıl "Şərq"ə vurğulayıb ki, burada İranın proseslərə qarışmaması və Azərbaycana qarşı əzələ nümayişi etməməsi üçün mesajlar verilir:** "Bu, təbii ki, erməni məsələsi deyil. Çünki Ermənistan ordusu Azərbaycan əsgərləri tərəfindən məğlub edilib. Burada əsas məsələ kənar müdaxilədir. Yəni İranın proseslərə qarışmaması üçün mesajlar verilir.

Düzdür, ad çəkilmir. Lakin mesajın birbaşa kimə ünvanlandığını bilirik. Birincisi, Azərbaycan Ordusu çox müasirdir və güclüdür. İkincisi, beynəlxalq hüquqa görə Azərbaycan Qarabağda haqlıdır və doğru yoldadır.

Üçüncüsü isə 44 günlük Vətən müharibəsindən sonra bölgədəki vəziyyət dəyişib. Xüsusən Şuşa Bəyannaməsinin imzalanması ilə birlikdə Azərbaycan və Türkiyənin əlaqələri müttəfiqlik səviyyəsinə yüksəlib.

Digər tərəfdən Azərbaycan həmişə İrana həssas yanaşaraq, uzun illər İsraildə səfirliyini açmırdı. Ermənistanın isə İsraildə səfirliyi var. Lakin görünən odur ki, İran bu həssasiyəti və mədəniyyəti başa düşmür.

Mədəniyyəti başa düşməyən ölkəyə də lazımlı cavab verilməlidir. Ona görə də Prezidentin çıxışı olduqca konkret və yerində cavabdır. Ondan gözlənilən də bu idi. Bu mesajların məhz Şuşadan verilməsi isə Azərbaycanın qərarlılığını göstərir".

**Nihat Müzəffər**

## Ən böyük şübhə molla rejiminin üzərinə yönəlir

### İran ölkədə siyasi şiəlik hərəkatını terror amili ilə birləşdirməyi hədəfləyir



**İranın Kəşfiyyat Nazirliyi Şirazdakı Şahçıraq ziyarətgahında törədilən terror aktına görə Azərbaycanı ittiham edən bəyanat yayımlayıb. Bəyanata əsasən, terror aktını İŞİD-lə əlaqəli olan, Azərbaycan, Tacikistan və Əfqanıstan vətəndaşları "törədiblər" və proseslər Azərbaycandan "yönləndirilib". Lakin rejim Azərbaycanla bağlı ittihamlarını sübut edən heç bir dəlil ortaya qoymayıb.**

Siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə bildirib ki, İran ölkə daxilindəki "sunami"nin qarşısını almaqda çətinlik çəkdiyindən diqqətləri gərginlik yaşadığı Azərbaycanın üzərinə yönəltmək və terrorçuluğa dair iddialarını "sübuta yetirmək" istəyir. Analitikə görə, İran həm də ölkədə siyasi şiəlik hərəkatını terror amili ilə birləşdirməyi hədəfləyir: "Bu mənada Şirazdakı terrorda ən böyük şübhə elə molla rejiminin üzərinə yönəlir. İranın terror aktı ilə bağlı məsələni Azərbaycanla əlaqələndirməsi Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Tehranın Bakıya qarşı kəşfiyyat-pozuculuq fəaliyyətini ifşa edən məlumatları yayımlamasından sonra baş tutdu. Bu, təsadüfi bir qarşılaşdırma deyil və İran Azərbaycana öz aləmində əks-hücum həyata keçirdiyinin işarəsini verir. Tehran ölkədə iğtişaşlar başlayandan bəri bunun mənbəyini həmişəki kimi xarici qüvvələrə proyeksiya edir və Azərbaycanı da özünün bu ittihamının içərisində saxlayırdı. Terror hadisəsində Azərbaycan izi axtarmaqla molla rejimi özünün boş və dişsiz fərziyyələrinə dünya ictimaiyyətini və daxili auditoriyanı inandırmaq məqsədləri güdür".

**İsmayıl**

## Evin tək uşaqları da cəbhəyə göndəriləcək

### "Azərbaycanda onsuz da təkuşaqlı ailələrin sayı çoxdur"



**"Evin tək uşaqlarının cəbhəyə göndərilməməsi təklifinin reallaşacağını düşünmürəm".**

**Bunu "Şərq"ə hərbi ekspert Ədalət Verdiyev deyib. Onun sözlərinə görə, Azərbaycanda onsuz da təkuşaqlı ailələrin sayı çoxdur:** "Bu, sonrakı uşaqların dünyaya gəlməsi üçün problemlər yarada bilər. Müdafiə Nazirliyinin qeyri-rəsmi olaraq, tək uşaqların cəbhəyə göndərilməməsinə dair məlum təlimatı mövcuddur.

Lakin hazırda bunu tam şəkildə həyata keçirmək mümkün deyil. Orduda həm evin tək uşaqları, həm də şəhid ailəsi üzvləri xidmət edirlər. Ölkəmizdə isə hazırkı şəraitdə təkuşaqlı ailələr 12-13 faiz arası təşkil edir.

Təklifləri verməzdən əvvəl Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Müdafiə Nazirliyi ilə bu məsələləri razılaşdırmaq, tək uşaqların faiz nisbətini öyrənmək, orduda xidmət edənlərin neçə faizinin cəbhə ilə əlaqədar olmayan işlərə cəlb olunmasını nəzərə almaq vacibdir".

Qeyd edək ki, deputat Sabir Rüstəmxanlı Milli Məclisin İctimai birliklər və dini qurumlar, Mədəniyyət, Elm və təhsil, Səhiyyə, Ailə, qadın və uşaq məsələləri komitələrinin birgə iclasında təkliflə çıxış edib. O söyləyib ki, evin tək uşaqları cəbhəyə göndərilməsinlər.

**Sücayət Mehti**

# Rus ordusu tükənir

## Kremlin sülh danışıqlarına can atması da bunu təsdiqləyir



**"Rusiya böyük sürətlə ağır məğlubiyyətə doğru yaxınlaşır. Rusiya əleyhinə beynəlxalq koalisiyada parçalanma və ya başqa müəyyən ciddi problemlər yaranmasa, Kreml yaxın bir neçə ay ərzində kapitulyasiya məcburiyyətində qala bilər. Çünki Kreml etiraf etməsə də, Rusiyanın maliyyə-iqtisadi və hərbi-texniki resursları tükənmək üzrədir".**

**Bunu "Şərq"ə açıqlamasında siyasi şərhçi Elçin Xalidbəyli deyib.**

Analitik bildirib ki, Kreml hazırda Rusiya ordusunun silah-sursat və hərbi texnika ehtiyaclarını ödəməkdən ötrü ABŞ və Qərblə ciddi problemləri olan ölkələrə mühacirət etmək məcburiyyətində qalıb: "Rusiyanın müraciətləri ümid bəslənən nəticələrdən çox uzaqdır. Kremlin hətta qismən səfərbərlik ilə orduya çağırılmış yeni əsgərləri ən elementar hərbi ləvazimatlarla belə təmin etməkdə çətinlik çəkdiyi bildirilir.

Ona görə də hazırda Rusiya işğal etdiyi Ukrayna ərazilərindən tədricən çıxmaq məcburiyyətində qalıb. Rusiyanın həmin əraziləri nəzarətdə saxlamağa hərbi gücü çatmır. Hətta Ukrayna savaşının tezliklə Rusiya ərazisinə keçirilmə ehtimalı da artıq daha inandırıcı görünür.

Rusiyanın Ukrayna savaşında ağır vəziyyətə düşdüyünü Kremlin sülh danışıqlarına can atması da təsdiqləyir. Ancaq müharibə meydanında vəziyyət Ukraynanın xeyrinə dəyişdiyinə görə rəsmi Kiyev hələlik sülh danışıqları barədə düşünmür. Yəqin bu məsələ daha çox ABŞ və Qərbin verəcəyi keçid qərarından asılı olacaq. Qərb ölkələri də Ukrayna savaşı ucbatından indi ağır durumdadırlar.

Yəni ABŞ və Qərbin müəyyən şərtlər altında Rusiya ilə anlaşma ehtimalı da qətiyyən istisna deyil. Üstəlik, Rusiya Prezidenti Vladimir Putinin öz emissarları vasitəsilə 20-dən çox Qərb ölkəsi ilə gizli təmaslar qurduğu və anlaşmağa çalışdığı haqda da məlumatlar mövcuddur. Rusiyanın savaş meydanında mövcud olan indiki situasiya çərçivəsində dərhal sülh sazişi imzalamağa hazır olduğunu düşünmək mümkündür".

*Qeyd edək ki, Rusiya qoşunlarının Ukraynadakı komandanı Sergey Surovikin açıqlamasına əsasən, rus ordusu bu il fevralın 24-dən sonra Ukraynada ələ keçirdiyi yeganə vilayət mərkəzi olan Xerson şəhərini tərk edəcək. Xerson şəhəri Ukraynanın cənubunda yerləşən Xerson vilayətinin mərkəzidir. Şəhər Dnepr çayının sağ sahilində, çay mənsəbindən 25 km məsafədə yerləşir. Xerson Rusiyanın ilhaq etdiyi dörd vilayətdən biridir.*

**Aygün Tahir**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi



# "Yeni Müsavat"ın varlığını, kollektivin birliyini qorumaq əsas hədəfimizdir"

## Rauf Arifoğlu: "Gələcəklə bağlı ümidlərimiz çoxdur. İnşallah, jurnalistlərimizi yüksək maaşla təmin etmək imkanlarına da sahib olacağıq"

**"Yeni Müsavat" qəzetinin ilk sayının çap edilməsindən 33 il ötüb. Müasir mətbuat tariximizin ən uzunömürlü nəşrlərindən olan qəzet 10 noyabr 1989-cu ildə Azərbaycan Milli Demokrat Yeni Müsavat Partiyasının mətbu orqanı kimi yaradılıb. Qəzetin qurucusu hazırkı təsisçi və baş redaktor Rauf Arifoğludur.**

Müasir mətbuat tarixində öz dəsti-xətti ilə seçilən, fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularına yön verən "Yeni Müsavat" qəzeti bu illər ərzində təkcə cəmiyyətin informasiya ilə təmin olunması funksiyasını yerinə yetirməmiş, eyni zamanda, Azərbaycanda ictimai fikrin obyektiv və düzgün əsaslarla formalaşması sahəsində böyük xidmətlər göstərmiş, gərgin mübarizədə müstəqilliyini bərpa edən ölkəmizin siyasi sisteminin milli maraqlara uyğun qurulmasında mühüm rol oynayıb.

"Yeni Müsavat" qəzeti ilk illər (1989-1991) gizli fəaliyyət göstərib, kommunist Sovet rejiminə qarşı yaradılan Azərbaycan Milli Demokrat Yeni Müsavat Partiyasının mətbu orqanı olub. 1991-ci illin dekabrında, Azərbaycan müstəqilliyini qazanandan iki ay sonra gizli fəaliyyətə son verib və dövlət qeydiyyatına alınıb.

1993-cü ilin mart ayından qəzetin təsisçiliyini Müsavat Partiyasının başqanı İsa Qəmbər öz üzərinə götürüb. 16 il 8 aydan sonra - 2009-cu ilin noyabrında o, qəzetin 20 illik yubileyi münasibəti ilə təsisçiliyi Rauf Arifoğluna qaytarıb. Bütün formallıqlar həll edildikdən sonra, 26 noyabr 2009-cu ildən başlayaraq qəzet Rauf Arifoğlunun təsisçiliyi ilə işıq üzü görməyə başlayıb.

Hazırda qəzetin 7000-dən yuxarı sayı işıq üzü görüb.

"Yeni Müsavat", Azərbaycana həftədə 7 dəfə çap rejimini gətirən yeganə qəzetdir.

2001-ci ildən internetdə çıxan Musavat.com saytı isə ilk vaxtlar "Yeni Müsavat" qəzetinin elektron versiyası sayılırdı. İndi o, öz tirajına görə qəzeti dəfələrlə üstələyib və artıq müstəqil, onlayn xəbər portalıdır. Həftənin bütün günlərində 24 saat yayında olan yeganə onlayn Azərbaycan portalıdır.

**Qəzetin keçdiyi keşməkeşli yola kiçik də olsa bir nəzər salmaq, həm də "Şərq" qəzeti adından həmkarlarımızı təbrik etmək məqsədi ilə Rauf Arifoğlu ilə əlaqə saxlayıb, bir neçə sual ünvanladıq.**

**- "Yeni Müsavat" adı Rauf Arifoğlu üçün hansı anlam ifadə edir?**

- "Yeni Müsavat" həyatımın layihəsidir. 33 ildir bu adla yol gəlirəm. "Yeni Müsavat" qəzetini qurarkən yaşımız 30-dan aşağı idi. Qəzetin ilk nüsxəsini nəşr edəndə 23 yaşlı gənc idim. İndi qəzetimizin və Azərbaycanın II İstiqlalının yaşı 30-dan yuxarıdır! Demək ki, missiyamız alınıb! Demək ki, boşuna yaşamamışıq! Biz tarix olmadıq! Biz tarix yazdıq! 56 yaşımda belə bu qəzeti nəşr edirəmsə, bu müddət və fürsət üçün Allaha çox minnətdaram.

**- 33 yubiley yaşı olmasa da, qoşa rəqəmdi. Bir tədbir planınız varmı?..**

,- 33 il həm də bir qərinə deməkdir. "Yeni Müsavat"ın ad günü ilə bağlı "Bir qərinənin qəzeti" adlı qısa film hazırlamışıq. Kollektivimiz və bizə yaxın olan media nümayəndələri ilə həmin filmin təqdimatını edib, axşam yeməyi ilə tədbiri sonlandıracağıq.

**- Çox gərgin bir dövrdə qeyri-leqal çıxan partiya məcmuəsinin uzun ömürlü qəzet olacağı belə böyük bir uğurkən bu gün böyük bir holdinq olaraq fəaliyyətini davam etdirir. "Yeni Müsavat"ın bu qədər böyüyəcəyini gözləyirdiniz, yoxsa hədəfiniz bundan da böyük idi?**

- "Yeni Müsavat" milli azadlıq hərəkatının axarında, dalğasında yaranmış bir media quruluşudur. Qəzeti sadəcə yenicə qurduğumuz Azərbaycan Milli Demokrat Yeni Müsavat Partiyasının mətbuat orqanı kimi düşünürdük. Partiyanın ən gənc katibi olduğum üçün yayım orqanını yaratmaq mənə həvalə olundu. Məqsəd qeyri-leqal da olsa partiyamızın təbliğatını bir mətbu orqan üzərindən təşkil etmək idi. Daha əvvəl "Birlik" Cəmiyyətinin eyni adlı qeyri-formal dərgisinin 3-cü və 4-cü saylarını mən çıxartmışdım. Həm gizli mətbəələri, həm də yayım işinin təşkilini yaxşı bilirdim. Amma nə yalan deyim, bu qədər uzun yol gələcəyimizi də düşünmürdüm.

33 il bundan öncə - 10 noyabr 1989-cu ildə sadəcə gizli fəaliyyət göstərən bir qəzet qurduq və var gücümüzlə davamlılığını təmin etdik. O bizi, biz onu böyütdük! Media Qrup statusuna yüksəltdik. Buralara qədər gətirdik. Uzun yol getmək deyil bu. Uzun yol çəkməkdi!

Bu yol boyunca "Yeni Müsavat" qəzeti də çağdaş dünyaya uyğunlaşdı və müxtəlif obrazlara büründü. İldən-ilə böyüdü, öz əhatəsini genişləndirdi və nəhayət, bir partiya orqanından başlanan yol "Yeni Müsavat" Media Qrupuna qədər uzandı. Bu gün "Yeni Müsavat" öz fəaliyyətini sadəcə qəzet olaraq yox, rus və Azərbaycan dilində yayım edən internet portalı, televiziyası, sosial media seqmenti var. Yeni 33 il əvvəl kommunizmə qarşı mübarizə üçün samizdat nəşr bu gün Azərbaycanın ictimai-siyasi, söz tarixinin bir parçasıdır.

Azərbaycan şərtlərində mən bunu çox ciddi və tarixi bir uğur hesab edirəm. Hədəflərimiz isə hər zaman böyük olub. Regional əhəmiyyətli bir televiziya yaratmaq iddiamız vardı, amma bu günümüzə də şükür!

**- Sizin də qeyd etdiyiniz kimi "Yeni Müsavat" dünənin yox, bir qərinənin qəzetidir. Bu müddət ərzində "Yeni Müsavat"ın siyasətində nələr dəyişib. İlk günkü ilə bugünkü qəzetin oxşar və fərqli cəhəti?**

- Çox şey dəyişib. Samizdat "Yeni Müsavat" ideoloji-siyasi qəzet idi. Sonradan ictimai-siyasi qəzet, daha sonra isə informasiya xarakterli bir qəzet kimi öz fəaliyyətini davam etdirdi. Nəhayət ki, partiya şinelindən çıxıb mərkəz mövqeyinə keçid edərək müstəqil media qurumu olaraq öz fəaliyyətini davam etdirir. Yəni biz əvvəl siyasətə, eləcə də bir düşərgənin başqasını tənqid və təhqirinə alışmış oxucu kütləsini xəbər, yenilik istəyən, dünyadan məlumat almaq istəyən oxucu kütləsi ilə əvəzləmişik. Həm də auditoriyanı böyütdük. Bizi indi həm narazı, həm də iqtidar elektoratı oxuyur. Eyni zamanda Azərbaycanın daxilində, xaricində informasiya almaq imkanı olan hər kəs oxuyur. Bu, böyük nəticədir. Sözsüz, oxşar cəhətləri də var. Formatından asılı olmayaraq "Yeni Müsavat" qəzeti 33 ildir azərbaycançılıq ideyasını təbliğ edir, Azərbaycanın haqq davasını edir. O zaman da, indi də Vətənə və millətə sədaqətlə xidmət edir.

**- Son vaxtlar çap mətbuatına qarşı bir basqı var. Xüsusən, yeni media nümayəndələri təkidlə cəmiyyəti qəzetlərin artıq arxiv olduğuna inandırmağa çalışır. 33 illik bir qəzetin baş redaktoru və eyni zamanda internet media orqanlarının rəhbəri olaraq üstünlüyü hansı mediada görürsünüz?**

- Real danışaq, print media həqiqətən də böhranlı dövrlər yaşayır. Problem tək bizdə deyil, dünyada bu tendensiya var. Çap mediası zəifləyir. Elektron mediasının o qədər üstünlükləri var ki, müqayisədə heç sıraya belə dayanmırlar.

Hər zaman deyildiyi kimi 21 əsr internet əsridir və xəbər anlayışı operativliyi, sürəti sevir. Çap mediasında xəbərin operativliyinə nail olmaq qeyri-mümkündür. Qəzet sahəsində çalışan hər kəs bilir ki, gün ərzində ən aktual və gündəm yaradan xəbərlər toplanır və gecə şapdan çıxan qəzet ən tezi səhər saat 06:00 radələrində köşklərdə olur. Günün ən özəl informasiyasını əldə etsək belə saatlarla onu saxlamaq məcburiyyətində qalırsan. Hazırda isə informasiyanı gizləmək qeyri-mümkündür. Məhz bu səbəbdən print medianın xəbər daşıyıcısı olaraq əhəmiyyəti azalıb. Amma çap mediası bir ənənə, bir tarixdir. Azərbaycanın bu günü, tarixi, gələcəyi baxımdan qəzetlərin qorunub saxlanılması çox mühümdür.

Bu səbəbdən elektron medianın paralelində qəzetimizin də inkişafı üçün var gücümüzlə çalışırıq. Əslində "Yeni Müsavat" qəzetinin daha keyfiyyətli formatına nail olmağın yollarını bilirəm, amma bunun üçün xeyli sərmayəyə ehtiyacımız var deyə hələlik reallaşdıra bilmirəm.

**- Ən çox hansı medianın işinə nəzarət edirsiz?**

- Əlbəttə, hamısına. Amma bir reallıq da var ki, "Yeni Müsavat" Media Qrupunun baza təsisatı qəzetdir və çarxı çevirən də odur. Gündəlik planlaşdırma, xəbərlərin hazırlanması kimi proseslər qəzet əməkdaşlarına aiddir. Sadəcə, əməkdaşlarımız əldə etdiyi özəl informasiyaları axşama qədər qəzetdə getməsi üçün saxlamır, birbaşa sayta yerləşdirirlər.

**- Qəzetin inkişafı üçün xeyli sərmayəyə ehtiyac duyduğunuzu dediniz. Bəs, hazırda qəzetin satışı gördüyünüz bu işlərin məsrəfini ödəyə bilirmi?**

- Təəssüf ki, xeyr! Elektron saytlarımız gəlirlə işləyir və qəzeti də ordan gələn dotasiyalar vasitəsilə ayaqda saxlayırıq. Eyni zamanda dövlətin, əvvəl KİVDF-nin, bu gün də MEDİA-nın dəstəyi sayəsində qəzetin nəşrini davam etdirə bilirik. Əgər bu dotasiyalar olmasaydı çox əziyyət çəkərdik. Çünki qəzet çox əziyyətli və məsrəfli bir informasiya vasitəsidir. Biz də uzun bir tarixə dayanan çap mediası ənənəsini qırmaq istəmirik deyə, çətinliklə də olsa yolumuza davam edirik.

**- Jurnalistikada hamı maaşın azlığından gileylənir. "Yeni Müsavat"ın kollektivinin vəziyyəti necədir? Razı sala bilirsiniz? Yoxsa tez-tez "müdir, maaşımızı artır" deyirlər...**

- Razıyam, jurnalistikada maaş azdır. Çox təəssüf ki, ümumilikdə media sektorunda böyük pullar yoxdur. Bütün dünyada bu sahədən kifayət qədər gəlir əldə edirlər, amma Azərbaycanda imkanlar çox məhduddur. Ölkədə fəaliyyətdə olan çox az sayda media quruluşu reklam bazarında özünə yer tutub, qazana bilir. Qalanları isə əziyyətlə dolanır. Ölkənin intellektual kəsimi hesab edilən jurnalistlər də minimum maaşla işləməli olurlar. Əslində, Azərbaycan mediasının ümumi durumuna nisbətən "Yeni Müsavat"da vəziyyət qənaətbəxşdir. Sözsüz, əməkdaşlarımızı tam istədiyimiz maaşla təmin edə bilmirik və bu da xəsislik etdiyimiz üçün deyil. Maliyyə imkanlarımız o qədər də geniş olmadığı üçün buna məcburuq. Lakin gələcəklə bağlı ümidlərimiz çoxdur. İnşallah, jurnalistlərimizi yüksək maaşla təmin etmək imkanlarına da sahib olacağıq.

**-"Yeni Müsavat" 34 yaşına nə kimi planlar, hədəflərlə gedir?**

- 33 il boyunca tək strategiyam mövcudluğumuzu qorumaq və qəzetin nüfuzuna xələl gətirməmək olub. İmkan daxilində də inkişafına nail olmaq. 34 yaşımıza da bu ümid və planla gedirik. Qəzetin varlığını, kollektivin birliyini qorumaq əsas hədəfimizdir. Bunlar varsa, gələcək də var. Gələcək varsa, demək, süprizlər də olacaq. Gələcəyə iddialıyıq! "Yeni Müsavat"ın yaşamasında və bu günlərə çatmasında əməyi olan hər kəsə minnətdarıq!

**P.S. "Şərq" qəzeti olaraq bir daha "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu başda olmaqla orada çalışan həmkarlarımızı təbrik edir, kollektivə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!**

**Şeymən Bayramova**

# "Atatürk Türkiyəni sadəcə silahla, hərbi güclə qurmadı"

## Faiq Ələkbərli: "Eyni zamanda bir çox mənəvi-siyasi ideyalardan da yararlandı"



**Türkiyə Cümhuriyyətinin qurucusu və lideri Mustafa Kamal Atatürkün vəfat etməsindən 84 il ötür. 57 illik həyatında millətinin və vəteninin istiqlaliyyəti uğrunda apardığı hər bir mübarizəni zəfərlə taclandıran Atatürkün adı Türkiyə və dünya tarixinə qızıl hərflərlə yazılıb. Atatürk 1881-ci ildə Selanikdə anadan olub. Təhsil aldığı Selanik Hərbi Liseyində riyaziyyat müəllimi olan Mustafa Əfəndi Atatürkü sinifdəki digər Mustafadan fərqləndirmək üçün istedadlı şagirdinə "Kamal" adını qoyub.**

1923-cü ilin 29 oktyabr tarixində Türkiyə Böyük Millət Məclisi tərəfindən Cümhuriyyət elan edilərkən, Mustafa Kamal Atatürk dövlət başçısı seçilib. 1938-ci ilə, vəfat etdiyi zamana qədər ard-arda dörd dəfə dövlət başçısı seçilən Atatürk bu vəzifədə ən uzun müddət qalan prezident olub. 1921-ci il 23 avqustda yunanlarla aparılan Sakarya döyüşündə qələbə qazanan Mustafa Kamala "Marşal" və "Qazi" rütbəsi verilib. 1934-cü ildə isə ona qanunla "Atatürk" soyadı verilib və bu soyadın başqaları tərəfindən istifadə olunması qadağan edilib. Atatürk 1938-ci il 10 noyabrda, 57 yaşında İstanbulda Dolmabahçe Sarayında gözlərini əbədi yumub. Onun nəşi 1953-cü ildə ölümünün 15-ci ilində Ankaradakı Anıtqəbirə köçürülüb. Anıtqəbrə Türkiyənin bir çox regionlarından, o cümlədən Atatürkün doğulduğu Selanikdən torpaqlar gətirilərək tökülüb. Bu torpaqlar məzarın kənarındakı mis qablarda yerləşdirilib.

**Türkoloq-alim Faiq Ələkbərli "Şərq"ə açıqlamasında bildirib ki, Mustafa Kamal Atatürk nəinki Türkiyə Cümhuriyyəti, bütün türk dünyası və xalqları üçün çox önəmli şəxslərdən biridir. Alim vurğulayıb ki, XIX əsrin sonu, XX əsrin əvvəllərində süquta uğramış Osmanlının yerində yeni türk dövləti qurmaq heç də asan deyildi:** "Atatürk Türkiyə Cümhuriyyətini qurduğu zaman sadəcə silahdan, hərbi gücdən istifadə etmədi. Eyni zamanda bir çox mənəvi-siyasi ideyalardan da yararlandı. Onun izlədiyi yol çağdaş dövrün tələblərinə uyğun müasir türk respublikası qurmaq idi. Osmanlı dövləti daha çox dini dəyərlərə əsaslanırdı və özünəməxsus qayda-qanunları var idi. Böyük Osmanlının yerinə ancaq Anadolunu əhatə edən Türkiyə Cümhuriyyətini qurmaq böyük zəhmət tələb edirdi. Atatürk yeni cümhuriyyəti qurarkən ilk növbədə türklüyün yenidən Anadoluda bərpasını nəzərə aldı. İlk növbədə millətə türklüyü yenidən qazandırdı. Cümhuriyyətin də ilk prinsipi məhz türklük üzərində idi. Əlbəttə, bu, heç də o anlama gəlmir ki, Atatürkün Türkiyəsində bəzilərinin iddia etdiyi kimi islam dininə məxsus dəyərlər arxa plana keçdi. Xeyr, elə deyil. Sadəcə, dinə münasibətdə də yeni yanaşma ələ alındı. Türklük və milliyyətçilik hissləri ilə yanaşı, yeni türk insanının dinə yeni baxışı da formalaşdı. Bütün bunlarla yanaşı, Mustafa Kamal Atatürk mənəvi atası saydığı Ziya Göyalpın "türklük, islamlıq, çağdaşlıq" triadasını da qəbul edirdi. Məlumdur ki, Ziya Göyalp da böyük türk mütəfəkkiri Əli bəy Hüseynzadənin prinsiplərinə əsaslanmışdı".

*F.Ələkbərli qeyd edib ki, Atatürk Ziya Göyalpdan aldığı türklük ideyasını dövrün tələblərinə uyğun olaraq doğru müəyyənləşdirə bildi:* "Atatürkün qurduğu yeni Cümhuriyyətdə türklüklə yanaşı, digər dəyərlərə də sahib çıxıldı. Beləliklə, Atatürk türk insanını ən azından Anadoluda yenidən canlandırdı. Atatürk dəfələrlə deyirdi ki, "Türkiyədən kənarda da türklər yaşayır. Onlar nə zaman öz azadlıqlarını əldə etmək istəsələr, Türkiyə onların yanında yer almalıdır". Böyük Atatürkün dediyi fikirlər təxminən 70 ildən sonra reallaşdı. Azərbaycanın şimalında müstəqilliyimizi bərpa etdik. Eyni zamanda Türkistan diyarındakı respublikalar müstəqilliklərini elan etdilər. Atatürk buna, türk dünyasının azadlığına və birliyinə inanırdı. Bu gün Türk Dövlətləri Təşkilatı yaranıb və ciddi fəaliyyət göstərməkdədir".

**İsmayıl Qocayev**



## Razılaşdırılmamış aksiyanın qarşısı alınacaq

**Bir qrup şəxs noyabrın 11-də aksiya keçirmək üçün Bakı şəhər İcra Hakimiyyətinə müraciət edib və qurum aksiyanı məqsədəmüvafiq hesab etməyib. Əgər məqsədəmüvafiq hesab olunmursa, deməli aksiyanın keçirilməsinə razılıq verilməyib. Ona görə də şəhər İcra Hakimiyyəti ilə razılışdırılmamış aksiyaya cəhd olarsa qarşısı alınacaq.**

Bunu DİN Mətbuat Xidmətinin bölmə rəisi, polis baş leytenantı Zeyni Hüseynov deyib.

"Bir neçə il əvvəl belə bir aksiyaya icazə verilsə də aksiyanın təşkilatçıları öz üzərlərinə düşən şərtlərə əməl etmədilər. Onlar qəsdən ictimai asayişin pozulmasına, insanların, nəqliyyatın hərəkətinə mane olmağa cəhd etdilər və qarşısı da alındı. Bunu nəzərə alaraq bu dəfə həmin ərazidə aksiya keçirilməsinə razılıq verilmədi.

Hətta qanunsuz aksiya zamanı iştirakçılar polisin tələbinə tabe olursa, ona qarşı hər hansı bir müqavimətə cəhd göstərmirsə belə olan halda polis inzibati cəza tətbiq etmir, yalnız iştirakçılar ərazidən kənarlaşdırılırlar. Əgər aksiya zamanı iştirakçılardan hansısa polisin tələbinə tabe olmayıb ona qarşı müqavimətə cəhd göstərərsə belə şəxslər barəsində qanunamüvafiq tədbirlər görüləcəkdir.

Yeri gəlmişkən, əgər noyabrın 11-də həmin şəxslər razılaşdırılmamış aksiyanın keçirilməsinə cəhd edərlərsə, qarşısı alınacaq və bu zaman baş verə biləcək hər hansı qanunazidd əməlin məsuliyyəti də təşkilatçıların üzərinə düşəcək", - DİN rəsmisi deyib.

# Yasamalda bəzi həyət evləri və qəzalı binalar söküləcək

## Vətəndaşları daha çox narahat edən zəmanətin olmamasıdır

**Bakıda növbəti köçürülmə prosesinə başlanılacaq. Yasamal rayonunda Alatava, "İnşaatçılar" metrosunun ətrafındakı ərazilərdə yerləşən həyət evləri, qəzalı beşmərtəbəli binalar sökülərək yeni binalar tikiləcək.**

Yasamal Rayon İcra Hakimiyyəti aparatının şöbə müdiri Xəqan Teymurov bildirib ki, sakinlərin köçürülməsi istiqamətində iş adamları ilə danışıqlar aparılacaq. Əgər tərəflər qarşılıqlı razılığa gələ bilsələr, sakinlər həmin binada yeni təmirli mənzillərlə təmin olunacaqlar və yaxud da sakinlərə kompensasiya ödəniləcək.

Hazırda Bakı şəhərinin baş planının hazırlandığını vurğulayan Yasamal Rayon İcra Hakimiyyətinin başçısı Elşad Həsənov isə bildirib ki, planda müxtəlif ərazilərin müxtəlif şirkətlərlə danışıq əsasında sökülməsi və yeni evlərlə əvəzləşdirilməsi var. E.Həsənovun sözlərinə görə, proses sakinlərlə şirkətlər arasında qarşılıqlı razılaşma əsasında icra olunacaq: "2014-2019-cu illərdə Bakı şəhəri, Yasamal rayonu, "Sovetski" məhəlləsindən 6 mindən çox ailə köçürülüb. Elşad Həsənov bildirib ki, birinci və ikinci mərhələdə köçürülən ailələrə müvafiq qaydada kompensasiyaların ödənilməsi təmin edilib. 2019-cu ildən "Sovetski"dən ailələrin köçürülmə prosesi müəyyən səbəblərə görə dayandırılıb. Həmin ərazidə tikilmiş Mərkəzi parkda isə tikinti işləri davam etdirilir və yaxın vaxtlarda növbəti hissəsinin açılışı gözlənilir. "Sovetski" məhəlləsində köçürülmə işlərinin üçüncü mərhələsinə gəlincə, icra başçısı qeyd edib ki, bir sıra məsələlər araşdırıldıqdan sonra növbəti mərhələyə başlanılacaq.

"Üçüncü mərhələdə ailələrə veriləcək kompensasiya isə bazar qiymətlərinə uyğun olaraq müəyyən ediləcək və bu ailələrlə razılaşdırılacaq".

**Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev bildirib ki, bu gün tikinti normativləri tikinti şirkətlərinin əvvəlki kimi böyük həcmli binalar tikə bilməyəcəyini göstərir:** "Əvvəllər yeni binaların tikilməsinə yerli rayon icra hakimiyyətləri baxırdı, lakin 2018-ci ildən etibarən bu səlahiyyət Şəhərsalma və Arxitektura Komitəsinə verilib. İndiki məqamda istismar müddəti bitmiş binalar mütləq şəkildə sökülməlidir. Çünki zəlzələ və yaxud qəza baş verərsə, həmin binaların uçma təhlükəsi böyükdür. Binaların qəzalı olmasına təsir edən amillərə onların uzun müddət baxımsız qalması və yol kənarında yerləşən binaların hər birinin birinci mərtəbəsinin sökülərək, qeyri-yaşayış obyektinə çevrilməsidir. Həmçinin də Yasamalda sözügedən ərazilərdə yaşı çox olan həyət evləri var ki, həm istismar müddətini bitirib, həm də şəhərin ümumi xarici estetik görünüşünə xələl gətirir. Bunların sökülərək əvəzinə hündürmərtəbəli binaların tikilməsi nəzərdə tutulub.



**Dövlət qurumu tərəfindən bu zəmanət verilsə, sakinlər də heç bir problem olmadan öz evlərini boşaldıb kirayə evlərə köçərlər**

Amma qəzalı binalarda yaşayan sakinlərin əksəriyyəti zəmanət verilmədiyi üçün mənzillərindən çıxmaq istəmirlər. Düşünürlər ki, adi MMC, tikinti şirkəti birdən tikə bilməz, yarımçıq qoyar və ya forsmajor hadisə baş verər. Bu baxımdan mütləq şəkildə aidiyyəti orqanlar bu proseslərdə fəal iştirak etməlidirlər ki, qəzalı binaların sökülməsi və yenidən tikilməsi prosesi sürətlə davam etsin".

**Ekspertin sözlərinə görə, köhnə binaların söküntüsü ilə bağlı tikinti şirkətləri aidiyyəti dövlət qurumlarından bütün sənədləri alırlar. Sənədlər toplanmasa, binanın qəzalı olması barədə FHN-in rəyi olmasa, tikintiyə icazə verilməsə, köhnə binanı söküb yenisini tikmək olmur. Şirkətlərin ən böyük səhvi odur ki, vətəndaşları o sənədlərlə tanış etmirlər:** "Hesab edirəm ki, bina qəzalıdırsa və sökülüb yenisi tikilməlidirsə, onun qəzalı olması, binanın sərəncamı, layihəsi ilə bağlı bütün sənədlər toplanıbsa, aidiyyəti dövlət qurumları tərəfindən bu icazələr verilirsə, vətəndaşlarla tikinti şirkətləri deyil, həmin dövlət qurumlarının nümayəndələri danışıq aparmalıdır. Həmin nümayəndə vətəndaşa bildirməlidir ki, biz dövlət qurumu olaraq bu binanın sökülməsi ilə bağlı qərar vermişik və zəmanət veririk ki, bu bina filan tarixdə söküləcək, filan tarixdə yenisi sizə təhvil veriləcək. Vətəndaşları daha çox narahat edən bu zəmanətin olmamasıdır. Dövlət qurumu tərəfindən bu zəmanət verilsə, sakinlər də heç bir problem olmadan öz evlərini boşaldıb kirayə evlərə köçərlər. Çünki bu proses sakinlər üçün də faydalıdır. Belə ki, onlara yeni binadan və əvvəlkindən daha dəyərli və daha yaxşı təmirli mənzil veriləcək. Bu prosesdə müəyyən kriteriyalar qoyulmalıdır. Hansı mənzilin əvəzində konkret olaraq neçə kvadrat sahəli mənzilin veriləcəyi müəyyən edilməlidir".

**Şəymən**

# "Azərbaycanda yazar olmaq, könüllü dəlilikdi"

## Bəxtiyar Hidayət: "Axı bunun sənə heç bir xeyri, köməyi yoxdu. Heç öləndən sonra da kimsənin vecinə olmayacaq"

**Müsahibimiz Qazaxda yaşayan şair Bəxtiyar Hidayətdir. Onunla ötən həftə söhbələşəcəkdik, alınmadı. Gah şairin, gah da mənim işlərim araya "hava" saldı. Nəhayət, söhbətimiz baş tutdu. Əslində suallarım da başqa idi, intonasiyam da. Amma şair nədənsə, sərt başladı, söhbəti elə o minvalla da başa çatdırdıq.**

*Müsahibəni təqdim edirik:*

**- Bəy, söhbətləşəkmi?**

- Mən hazır, amma bir şey var ki, "Sherg.az" hökumətin saytıdır, ədəbiyyat barədə fikirlərim veriləcəkmi?

**- A bəy, dövlətin saytıdır...**

- Dövlətdəkilər dövləti də hökumət bilir.

**- O ayrı məsələ, malı-malı qatmayaq. Biz dövləti də, hökuməti də anlayırıq. Fikirlərinizi olduğu kimi dərc edəcəyik.**

- Onda sualları gözləyirəm...

- Elə burdan başlayaq ki, dünya informasiya və ya media məkanında mətbuatla bağlı bu sayaq ayrımçılıq - iqtidar, müxalifət mediası anlayışı- yoxdur, amma bizdə sanki insanlar özləri mətbuatı siniflşdirirlər. Siz də belə etdiniz. Mediadan narazılığınız aydın sezilir, səbəb nədir?

- Media bizdə komediyadı, bəlkə də tragikomediya. Baxın xəbərlərə, şou, zorlama, qarət... İşıqlı bir şey yox. Adını unutduğum bir şairin sözüdür:

-Boğulduq informasiya dənizində
Bir damla həqiqət verin
Bax o bir damla həqiqət yoxdu.

**- Bəy, bir ədəbi dərgi, sayt yaradın, dərcini başqasından gözlədiyiniz həqiqətlərinizi yazın. Bunu niyə etmirsiniz?**

- Vaxt yoxdu, ikinci də vaxt itkisidir. Qazanc yoxdu, gərək çılpaq şəkil qoyasan ki, sayt oxuna. Və sonra sayta reklam verələr. *Yəni: çılpaqlıq baş alıb getsə də qardaş Çılpaq həqiqətə yer yoxdu indi.*

**- Jurnalist sənətkarlığı və yazıçılıq bir az cəmiyyətə və sosial tələbə bağlıdır. Bu gün, tutalım, Bəxtiyar Hidayətin təcnislərinə lüzum görülmürsə, niyə yazsın? Təsəvvür edin, adam var, tində piştəxtanın üzərində meyvə-tərəvəz satır, gileylənir, hətta mənə eyham vurur ki:- Jurnalistlər də yazmırlar, yaza bilmirlər. Telefonu çıxarıram ki, dərdini "ağla", izhar elə, çəkim, üzünü ovcuna büküb qaçır. Vətəndaş etirazı pıçıltı ilə edir. "Dişsiz" cəmiyyətin "dişli" mediası ola bilərmi? Yazıçısını yaşada bilməyən cəmiyyət üçün yazıçı nə edə bilər ki? Axı ədəbiyyat da, media da cəmiyyətin güzgüsüdür, cəmiyyət necədirsə, nədirsə, media da, ədəbiyyat da ondan o tərəfə deyil...**

- Ədəbiyyat cəmiyyətin güzgüsüdür. Amma evdə ölü düşəndə güzgünün üzərini pərdələyirlər. Ölü cəmiyyətin pərdəli güzgüsü kimidi ədəbiyyat. Amma bəlkə də belə deyil, axı ədəbiyyat var, yaranır. Sadəcə, ədəbiyyatın yiyəsi olüb. Tənqid yox, təbliğat yox, kitab sənayesi yox, ədəbi inhisar meydan sulayır. Tərcümə Mərkəzi yalnız biznes kimi işləyir, xaricilərı tərcümə edirlər. Özümüzü xaricilərə təqdim etmirlər. Amma "Şusikənd"in bir ermənisini Qarabağ erməniləri Amerikada çap etdirir. Məsələ budu. Bizdə istedadlar da "n" qədərdir, əngəllər də...

**- Ədəbiyyatın yiyəsi kimdir? Bu problemlərin həllini kimdən və ya kimlərdən tələb etməliyik?**

- Bilmirəm! Gürcü, erməni müəlliflər Avropaya çıxır, dilləri ayrı, əlifbaları ayrı. Sayları da az. Amma bizdə bu yoxdu. Onlarda bunu yoluna qoyanlar dolayısıyla ədəbiyyatın yiyəsidir. Yoxsa bizdə necədi? AYB nə işə yarayır? Dövlətin 203 minini bir gündə sovurdular. Yenə də köhnə hamam, köhnə tas. "Pitiminutka" da olsa bir" azadlıq fonu yaradardılar. Halbuki mən 150-200 manat artırıb bir hekayəmi tərcümə etdirə bilmirəm. Mənim kimi də nə qədər yazar var. Bir sözlə, Azərbaycanda yazar olmaq, könüllü dəlilikdi. Axı bunun sənə heç bir xeyri, köməyi yoxdu. Heç öləndən sonra da kimsənin vecinə olmayacaq.

**- Amma Ramiz Rövşən əksini düşünür, deyir. Son müsahibəsində Azərbaycanda oxucunun olduğunu, kitabın da, kitab sənayesinin də mövcudluğunu ifadə etdi. Bir yanda 200 manat tapa bilməyən şair, digər yanda hər şeydən razı qalan qələm adamı. Necə olur bu?**

- Ramiz özündən sonra kimsəni qəbul etmir. Əli Kərim ucalığından şeiri başı kəsilən kötüyünü ucalığına qaytardı. Halbuki ağacın başı yox, ayağı kəsilir. Frazeoloji birləşmələri, idiomları hərfi mənasında vermək şairlik deyil. *Deyir:*

**Nə çoxdu kefinə soğan doğrayan
Kefindən xörəkmi bişirəcəklər.**

Birinci soğan ayrılıqda bişirilərdə çiban üçün bişirilir. Soğan bişirilməsi nə deməkdir? Özündən sonra da bu ənənə oldu. Salam "ana məni ağlayarsan, boyumu soxduğun yerdə" yazdı. *Biri yazdı:*

**- Mən sənin eşqindən sərxoş olmuşam,
əgər inanmırsan iylə ağzımı.**

***Başqası yazdı:***

**Gözlərim yol çəkir,
asfalt qırağında dəfnə ağacları bitib.**

Bu, poeziya deyil. Və dilin üstündə saxtakarlıq edəndə axır belə olmalıydı. Bir dəfə Əli Kərimin bir tədbirində çıxış edirdi - yalnız "Qayıt yerinə qoy ayı, günəşi" bu şeirdən danışdı. Əli Kərim ucalığının qabağında kötük ucalığı neyləyə bilər?!

**- Deyirsiniz ki, ədəbi tənqid yoxdur və yaz öləziyir. Bəzən belə fikirlər eşidirəm ki, bir hindusqa kababına həll eləmək olur, tənqid məsələsini. Burada da "bazar açıblar?"**

- Bu bazar da örtülü bazardır. Amma öz ayıblarını və AYBlarını örtürlər. İstəmirlər millətin istedadlıları üzə düşsün.

**- AYB-dən söz düşmüşkən, bu təşkilatın ötənlərdə baş tutan qurultayı və növbəti 5 il nə vəd edir?**

- Heç nə, it otu, bağayarpağı. Mənimçün lazımsız bir qurumdur. Amma bu qurumu süpürgənin qabağına vermək olmur. Hörümçək burda tor qurmayıb, karkas toxuyub.

**- Qeyd etdiniz ki, 150-200 manat artıra bilmədiniz, kitab satılmır, şeirlə qarın da doymur. Dolanmanı necə təmin edirsiniz?**

- Müəllim işləyirəm. Şükür, idarə edirik. Əvvəllər mal saxladım, dana bordadım. Amma o da əldən çıxdı, vəhşi kapitalizm imkan vermədi. Bir qarış örüş qalmadı. Hər yeri aldılar.

**Artırıb bir-iki inək elədim.
Yaman dara düşdü yüzünün yeri
İki yol örüşü bir naxır basdı
Qaldı ot yerinə izinin yeri**

**Mənnən ötrü həftə qara, ay ara
Payız qara, bahar qara yay qara
Daş yeridi, mal yeri döy çayqara
Heç yoxdu qoyunun, quzunun yeri**

**Burda mal otarmaq çox işgəncədi
Örüş yeri bircə, qoruq oncadı
Bu yan süpürgədi, bu yan yoncadı
O yan da kartofun, pazının yeri**

**Mən dedim dolanım üçünnən babat
Qurd yedi ağacı içinnən babat
Qorunur Şuşadan, Laçınnan babat
Buraxma tulanın, tazının yeri**

**Görən yaraları kimlər qanatdı
Hər gün sındırılan qoldu, qanaddı
Pres beş manatdı, süd bir manatdı
Odlanır bağrımın közünün yeri**

**Sözünü qaytardım sözü dəyənin
Yalanı dəyənin, düzü dəyənin
Mallara nəzəri, gözü dəyənin
Kalafa qalaydı gözünün yeri**

**Əyrilər düzləri hey danlar indi
Allahlıq eyləyir şeytanlar indi
Qalıb gədələrə meydanlar indi
Yoxdu Bəxtiyarın sözünün yeri**

*- Tam ifadə... Var olun, şair!*

**- Region ədəbiyyatında durum nə yerdədir? Axı ora bir az da gözdən uzaq, könüldən qıraqdır. Nələr baş verir?**

- Maraqlı deyil mənimçün. Hərdən tədbir keçirirlər. Deyilənə görə istedadlar var. Mən yazdığımı Feysbukda, İnstagramda, Vatcapda, Tik-Tokda paylaşıram. Onlara ehtiyacım yoxdu.

**- "Sosial medi ədəbiyyatı" deyimi yaranıb, bəzən də biraz aşağılayıcı intonasiya ilə ifadə edirlər. Sosial şəbəkə ədəbiyyatının nəyi və niyə pisdir?**

- Niyə pisdir ki. O da olmasa gərək daşa divara yazaq. Bu son imkanımızdır. Kitab çıxartmaq yox, qəzet yox, jurnal yox, tərcümə yox. Bu da olmasa batdıq. Amma burda da şou, bayağılıq var. Di gəl bunsuz da olmur

**- Xarici dilə tərcümə olunmaq işini AYB etmir, Tərcümə Mərkəzi də merkantil maraqlarını güdür. Bəs XXI əsrdə, yazarların dünya ilə dialoqa girməli çağında xarici dilə tərcümə olunmama, xarici ədbiyyat mühitinə çıxa bilməməyin zərbələri nələrdir?**

- Çatlamaq. Təsəvvür et əlində bahalı nəsə var, amma satılmır. Ölmüş kapitaldır. Nə etmək olar? Bunu işləyən yoxdur. Dövlət əl qoysa da, alınmayacaq. Çünki məmur yazarları imkan verməz. Axı əvvəlcə onlardır, biz qara camaatıq. Elə sovet vaxtı da beləydi. Yaxın sosialist ölkələr üçün tərcümələr vardı. Amma yenə Anar, Elçin. Çıxış yolu yoxdu, pis də çıxmasın, çıxış yolu əl çəkməkdir. Bu işi həyatından rədd etməkdir. Amma məndə alınmır. Öz-özünə gəlir şeirlər. Yazmamaq da olmur.

**- Qazaxda rəhmətlik Mövluda baş çəkirsinizmi, neynir, necədi?**

- Hərdən baş çəkirəm, gülümsəyir. Dünya vecinə deyil.

**- Həmişə üzü gülsün!**

- Nəinki rayonlarda, elə paytaxtın özündə də kitab mağazaları azdır və ya yoxdur. Bu məsələ rayonlarda daha məşəqqətlidir. Kitab tapmaq olmur, hər rayona gedəndə dosta-tanışa gücüm çatandan alıram, niyə ləğv olundu ki?

- Vəhşi kapitalizm kitabxanaları kababxanaya çevirdi.

**Qələmdaşı Aqşin Yenisey sual verir:**

**- Bəxtiyarın şairi hansıdır, Səməd Vurğun, yoxsa Hüseyn Cavid?**

- Mənim ən çox sevdiyim şair Əli Kərimdir. Qaldı Cavid və Vurğun məsələsinə, yalnız dilə görə Vurğun. Amma qətiyyətə, şəxsiyyətə, ideologiyaya, ədəbi taleyə görə əlbəttə ki Cavid.

**Şair Taleh Mansurun sualı:**

O gün tanımayıb keçdi Əzrayıl,
Hələ də axtarır baxışı məni,
Nə yaxşı tanıdın, nə yaxşı, məni..."- deyən şairin adamlar daha çox üzünü tanıyır, özünü, ya sözünü? Necə deyərlər, adı Bəxtiyar şair bilər düzünü. Sonu qafiyəli bu sualımı mənim tanıdığım Bəxtiyar Hidayət qafiyə ilə də cavablaya bilər, qafiyəsiz də, lap elə cinasla da. Hər bir halda, əminəm ki, sərbəst və sərrast cavablayacaq.



**Bəxtiyar Hidayət:**

*Yusif İlhamoğlu üçün*

**Düzü deyə-deyə düzdə qalmışam,
Sözümü qoymuşam söz yerinə mən
Əlimnən o təhər dağlar çıxıbdı,
Kaş dağda qalaydım, düz yerinə mən.**

**Yormuşam yolları, yola salmışam
Gedilən yolları gedib- gəlmişəm
Mən dağlar oğluyam, düzdə qalmışam
Onçu sayılıram toz yerinə mən**

**Mənə can əvəzi söz verib Tanrı
Bildim hər vəzini, hər cürə janrı
Kazım Körpüsünü keçsəydim anrı
Üzümü sürtərdim yüz yerinə mən**

**Gözüm gördü Qazançının başını
İşğal etdi sinəmi qəm qoşunu
Xəzəllinin torpağını, daşını
Mal kimi yalaram duz yerinə mən**

**Varmı Bəxtiyara bu halında bab
Ürəyim köz oldu, ciyərim kabab
Yolum gedərgəlməz, izim iztirab
Sözümü qoyuram iz yerinə mən**

*Yazıçı Ayxan Ayvaz bilmək istəyir:*

**- Bəxtiyarın həyatdakı ən böyük peşmanlığı nə olub?**

- Gücsüzlüyüm. Məcburi susqunluğum. Əlacsızlığım.

*Şair Emil Rasimoğlu soruşur:*

**- Çağdaş ədəbi prosesin problemlərini, problemlərin əsasındakı səbəbləri və mövcud problemlərin həlli yolunu necə təsəvvür edir?**

- Mən adi bir insanam. Mənim işim problemin ədəbiyyatını yaratmaqdır, ədəbiyyatın problemini həll etmək deyil. Buna nə gücüm, nə vaxtım var. Kimlər 100 minləri yeyir, onlar maraqlansın.

**- Amma Anar deyir Çingiz bilir, Çingiz də jurnalisti və Azərbaycan dilini təhqir edir. Xalq yazıçısı xalqın dilində danışmağı bacarmır, amma milli valyutasını xərcləməyi bacarır.**

- Bizim pul tanıdığı ən sonuncu puldur. Xarici valyutalardı onlarınkı. Onlar ədəbi inhisarı bilirlər. İstedadları məhv etməyi bilirlər. Şaiq Vəli və övladları o binada aksiya keçirdi. Sonu necə oldu, faciə. Şaiq üçün bir qəpik tapılmadı, amma özləri komfort həyat yaşayırlar. Qulbeçələri elə, xoruzları elə. Mövludun sağ əli bizim kimilərinin başına.

**- Məncə, yaşama zamanı...**

Hə, yalnız uşaqlara görə, vəssalam.

**- Sizin mənə sualınız varsa, buyurun!**

- Sağ olun, minnətdaram!

**Ayyət Əhməd**

# Attestatla təhsil alanların diplomlarının tanınmasında problemlər var

## Dələduzluqla məşğul olan şirkətlər var ki, vətəndaşlarımızı aldadırlar



**"Diplomların tanınması ilə bağlı mövcud qanunvericiliyin tələbi ondan ibarətdir ki, namizədlər 4-5 il ərzində Bolqarıstan, Danimarka, Belçika, Türkiyə və digər xarici universitetlərdə təhsil alıblarsa, ölkədən giriş-çıxışları vətəndaş pasportunda əksini tapmalıdır".**

**Bu sözləri "Şərq"ə təhsil eksperti Elçin Əfəndi deyib. Onun sözlərinə görə, vətəndaşın təhsil aldığı ixtisas üzrə biliyinin olması vacibdir:** "Paralel olaraq, tələbənin tədris müddətində mənimsədiyi əlavə dil (xarici) bilgiləri yoxlanılır. Təbii ki, adıçəkilən parametrlərə cavab verirsə, diplomun tanınması ilə bağlı hər hansı əngəl yoxdur. Müraciətinin müsbət qərarla yekunlaşması üçün vətəndaşlar Elm və Təhsil Nazirliyinin (ETN) tabeliyində Təhsildə Keyfiyyət və Təminat Agentliyinə müvafiq sorğu göndərirlər, dövlət rüsumu ödəyirlər. Diplom tanınacaqsa, barədə müraciət edən şəxsə məlumat verilir".

*E.Əfəndi vurğulayıb ki, xüsusilə də, attestatla təhsil alan şəxslərin diplomlarının tanınmasında problemlər var:* "Prosesin gedişatında bu kimi maneələr məhz distant (qiyabi) təhsil formasında öz əksini tapıb. Əngəllərin aradan qalxması üçün tələb olunan şərtlərə mütləq cavab vermək lazımdır. Problemlə üzləşmədən diplomun ölkəmizdə daha asan təsdiqlənməsini istəyiriksə, ilk növbədə, nəzərdə tutulan universiteti araşdırmaq vacibdir. Ali təhsil müəssisəsinin kifayət qədər nüfuzlu olub-olmadığı barədə məlumat almaq lazımdır.

Eyni zamanda diplomun ölkəmizdə tanınma səviyyəsini müəyyənləşdirmək üçün ETN-in Təhsildə Keyfiyyət və Təminat Agentliyinə müraciət etməliyik. Müsbət cavab üçün tələblərlə tanış olduqdan sonra təhsil aldığımız xarici ölkə diplomunu Azərbaycanda tanıda bilərik. Əks halda dələduzluqla məşğul olan şirkətlər var ki, vətəndaşlarımızı aldadırlar. Hər il 800-900 müraciətin 200-300-ü mənfi qərarla yekunlaşır. Nəticədə həmin vətəndaşlar "get-gəldə" qalırlar, məhkəməyə üz tuturlar, təhsil aldıqları universitet ilə əlaqə saxlamalı olurlar. Bu kimi arzuolunmaz halların yaşanmaması üçün araşdırmalar mütləqdir".

*Qeyd edək ki, ötən ay xaricdə təhsil almış 61 nəfərin diplomu tanınmayıb. Oktyabr ayı üzrə diplomların tanınması üzrə müraciətçilərin 406-sı barədə müsbət qərar verilərək, müvafiq şəhadətnamələr təqdim edilib, 61 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.*

**Sücayət Mehti**

## Nazirlik bəzi dərmanların qiymətinin 2-3 dəfə artmasına aydınlıq gətirib



**Satışda tapılmayan dərmanların bir müddət sonra qiymətinin 2-3 dəfə artmış şəkildə geri qayıtması məsələsinə aydınlıq gətirilib.**

Səhiyyə nazirinin müavini Rasim İsmayılov APA-ya açıqlamasında deyib ki, Azərbaycanda dərmanların qiymətini Tarif Şurası müəyyənləşdirir:

"Tarif Şurasının özünün də qiymətləndirmə metodları var. Tarif Şurasının hər hansı bir dərman, yaxud yeni dərmanlar ölkəyə daxil olanda alternativ ölkələrlə hesablama formaları var".

Səhiyyə nazirinin müavini yerli dərman istehsalı sahəsində işlər görüldüyünü diqqətə çatdırıb:

"Artıq iki şirkət - "Diamed Co" və "Erfam" şirkətləri yerli istehsala başlayıblar. Bu yaxınlarda Ələt Azad İqtisadi Zonasında İsrailin şirkəti ilə yeni istehsal müəssisəsi qurulmalıdır. İqtisadiyyat Nazirliyi ilə birlikdə bu istiqamətdə ciddi əməkdaşlıq var. Yeni investorların cəlb olunması ilə dərman istehsalını artırmaq istəyirik ki, idxaldan asılılığı aradan qaldıraq", o deyib.

## Dekabrda xaricdə təhsil üçün sənəd qəbuluna başlanılacaq

**2023-2024-cü tədris ili üzrə Dövlət Proqramı ilə xaricdə təhsil üçün sənəd qəbuluna dekabrın əvvəlindən başlanılacaq.**

Bunu elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli "Təhsil masası"nda deyib.

Onun sözlərinə görə, proses bu il daha tez başlanılacaq ki, hər kəs üçün əlçatanlıq təmin edilsin:

"Hamıya bərabər imkanlar yaradılacaq ki, proqrama müraciət edə bilsinlər".

## Azərbaycan quş qripinə görə bu ərazilərdən idxala məhdudiyyət qoydu



**Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi başqa ölkələrdən respublikamızın ərazisinə keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunmaq məqsədilə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatından (WOAH) daxil olan məlumatlar əsasında dünyadakı epizootik vəziyyətə uyğun olaraq müvafiq tədbirlər həyata keçirir.**

"Şərq" Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə istinadən xəbər verir ki, Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının rəsmi məlumatına əsasən, İsveç Krallığının Esterqotlandiya əyalətində Nyukasl, Macarıstanın Baç-Kişkun inzibati ərazi vahidində isə yüksək patogen quş qripi xəstəliyi qeydə alınıb.

Respublika ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə qeyd olunan ərazilərdən WOAH-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının, quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına və ölkə ərazisindən tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunub. Eyni zamanda, nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə İsveç Krallığının Esterqotlandiya əyalətindən və Macarıstanın Baç-Kişkun inzibati ərazi vahidindən gələn, yaxud tranzitlə keçən nəqliyyat vasitələri ilə bağlı müvafiq tədbirlərin görülməsi üçün Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət olunub.

# Fermerlərin əziyyəti puç olur

## Alma, nar, heyva, xurma bölgələrdə bağlarda çürüyür

**Payızda meyvə çeşidləri arasında ən bol olanları alma, nar, heyva, xurmadır. Paytaxtda da bu meyvələrə az qala hər addımbaşı rast gəlinir. Marketlərdə də bu meyvələr boldur, fərdi satış yerlərində də. Digəl ki, qiymət ucuz sayılmaz. Paytaxt marketlərində heyvanın qiyməti 1 manat 20 qəpiklə 1 manat 30 qəpik arası dəyişir. Halbuki, bölgələrdə fermerlər becərdikləri məhsulu ucuz qiymətə satır. Hələ sata bilsələr.**

Məsələn, Göyçayda ən çox becərilən meyvələr nar, xurma və heyvadır. Lakin fermerlər heyvanın bağlarda qaldığını deyir. Oxu.az xəbər verir ki, fermerlər əsasən heyvanın yerli sortları olan "Bağça", "Bardaq", "Beş ulduz" və "Kamil" növlərinə üstünlük verir. Bu il fermerlər aqrotexniki qulluğu vaxtlıvaxtında göstərdiklərinə görə bağlarda məhsul ötənilkindən xeyli çoxdur. Amma onlar min bir əziyyətlə əkib becərdikləri məhsulu satmaqda çətinlik çəkirlər. Keçən il heyvanın qiyməti 30 qəpiklə 1 manat arasında dəyişirdisə, bu il 20-70 qəpiyə satılır. Amma qiymətin düşməsi də alıcılıq qabiliyyətinin artmasına müsbət təsir göstərə bilməyib. Fermerləri narahat edən məsələ ilə bağlı Göyçay rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, istehsal artdığı üçün bu sahədə emal müəssisələrinin yaradılmasına ehtiyac var. Qeyd edək ki, Göyçayda 219 hektar heyva bağı var ki, onun da 192 hektarı bar verən bağlardır.



***"Məhsul şəhərə 2-3 qat baha qiymətə gəlib çıxır. Fermerin 20 qəpiyə satdığı məhsul paytaxtda marketdə niyə 1 manat 20 qəpiyə satılır?"***

**Becərilən məhsulun alıcıya çatmamasının səbəbləri barədə "Şərq"ə danışan iqtisadçı Fuad İbrahimov qeyd etdi ki, burada əsas məsələ fermerlərə dəstək verilməməsidir:**

- Kənd təsərrüfatının inkişafı planlamanın düzgün aparılmasından çox asılıdır. Birincisi, məhsulun alıcısı əvvəlcədən bəlli olmalıdır. Fermer məhsulu yetişdirərkən onu harada, hansı bazarda satacağını, hər hansı gözlənilməz, fövqəladə hal baş verməzsə, yetişdirdiyi məhsuldan nə qədər qazanc əldə edəcəyini, bu qazancı təkrar hansı sahəyə sərf edəcəyini, nə qədər xeyir götürəcəyini də bilməlidir. Bu işdə fermerlərə kənd təsərrüfatı, bağçılıq üzrə mütəxəssislər yardım etməlidir. Dövlət isə fermerin əməyini qarşılamalıdır. Müəssisələr məhsulu fermerlərdən sərfəli qiymətə almalı, məhsulun satışına yardım etməlidir. Artıq bizim ölkədə məlum həqiqətdir ki, bölgələrdə becərilən məhsul şəhərə 2-3 qat baha qiymətə gəlib çıxır. Fermerin 20 qəpiyə satdığı məhsul paytaxtda marketdə niyə 1 manat 20 qəpiyə satılır? Bu qədər yol xərci olmaz axı. Ucuz alınan məhsulu işbazlar bacardıqca baha qiymətə satmağa çalışırlar. Nəticədə məhsul kifayət qədər satılmır, xarab olur, məhv olub gedir. Fermerlərin əziyyəti də puç olur. Məhsulların kənddən şəhərə ucuz daşınması təmin edilməlidir ki, fermerlər ziyana düşməsin, əhaliyə də mövsümi meyvələri almaq əlçatan olsun.

**Məlahət Rzayeva**

# Atatürk təkcə sərkərdə deyildi

## O, həm də həyata keçirdiyi inqilablarla dövlət xadimi kimi tarixə düşüb

*(Əvvəli səh:- 16-da)*



**Atatürk 57 illik ömrünün böyük bir hissəsində millətinin və vətəninin istiqlaliyyəti, xoşbəxtliyi üçün yorulmadan çalışmış, girdiyi hər mübarizədən qalibiyyətlə çıxmışdır.**

1881-ci ildə anadan olan Mustafa Kamal 1905-ci ildə Hərbi Akademiyanı qərargah kapitanı kimi bitirib.

Atatürk 1905-ci ildə Şamda 5-ci Orduya, 1907-ci ildə Makedoniyada 3-cü Orduya təyin edilib. Monastir və Salonikdə olduğu müddətdə 1909-cu ildə İstanbulda 31 mart hadisəsini yatıran Hərəkat Ordusunda xidmət edib.

Alban üsyanının yatırılması əməliyyatında iştirak edən Atatürk 1911-ci ildə İtaliyanın Tripoliyə qoşun yeritməsindən sonra Tobruka göndərilib. Tobruk və Dərnədəki türk qüvvələrinə müvəffəqiyyətlə rəhbərlik etdikdən sonra Atatürk 1912-1913-cü illərdə mayor rütbəsi ilə Balkan müharibəsində iştirak edib, Ədirnəni Bolqarıstandan geri alan korpusda xidmət edib.

1913-1915-ci illərdə Sofiyada attaşe olan Atatürk 1915-ci ildə Birinci Dünya müharibəsində 19-cu diviziya komandiri olaraq Çanaqqala müharibəsində iştirak edib. Mustafa Kamal Atatürk Geliboluda düşmən hücumlarını müvəffəqiyyətlə dayandıraraq "Anafartalar Qəhrəmanı" kimi şöhrət qazanıb.

1916-cı ildə Korpus komandiri olaraq Şərq Cəbhəsinə təyin edilən Atatürkə general rütbəsi verilib. Rus hücumlarını dayandıran, Bingöl və Muş şəhərlərini düşməndən geri alan Mustafa Kamal Atatürk 1917-ci ildə Fələstin və Suriyadakı 7-ci Ordu Komandanlığına təyin edilib. Atatürk həmin il vəliəhd Vahdettin ilə Almaniyaya gedib.

O, Alman Baş Qərargahında və Alman müharibəsi cəbhələrində araşdırmalar aparıb. 1918-ci ildə yenidən təyin olunduğu Suriya cəbhəsində 7-ci Ordu Komandiri ikən Birinci Dünya müharibəsinin sonunda imzalanan Mudros barışıq müqaviləsindən sonra İstanbula qayıdıb. O, ölkəni düşmən işğalından xilas etmək məqsədini gizli saxlayaraq, ordu müfəttişi vəzifəsi ilə İstanbulu tərk edib.

Onun səyləri ilə Türkiyə Böyük Millət Məclisi (TBMM) 23 aprel 1920-ci ildə Ankarada tarixi missiyasına başlayıb. Mustafa Kamal Məclis və Hökumətin sədri seçilib. O, türk millətinin Osmanlı hökuməti ilə Antanta dövlətləri arasında imzalanan Sevr müqaviləsini qəbul etmədiyini dünyaya bəyan edib.

Antanta dövlətlərinin köməyi ilə İzmiri işğal edən yunan qüvvələrinin irəliləməsi 1921-ci ildə Birinci və İkinci İnönü müharibələri ilə dayandırılır. 23 avqust 1921-ci ildə yenidən hücuma keçən yunan ordusu məğlub oldu və Baş Komandan Mustafa Kamal Paşanın rəhbərlik etdiyi türk ordusu Sakarya döyüşünü qələbə ilə başa vurur. 22 gün davam edən bu müharibədə yunan ordusu ağır itki verir. Bu qələbəyə görə Mustafa Kamal Atatürkə Türkiyə Böyük Millət Məclisi tərəfindən "Marşal" rütbəsi və "Qazi" titulu verilir.

Türk ordusu vətəni düşmən işğalından xilas etmək üçün 26 avqust 1922-ci ildə əks hücuma keçir. Mustafa Kamal Paşanın başçılığı ilə 30 avqust 1922-ci ildə baş verən Baş Komandan döyüşündə türk ordusu yunan ordusunun böyük hissəsini darmadağın edir. Darmadağın edilən və qaçan düşmən qüvvələrinin ardınca gələn türk ordusu 9 sentyabr 1922-ci ildə İzmirə daxil olur. 1922-ci il oktyabrın 11-də Mudanya atəşkəs müqaviləsi imzalanır və müttəfiqlər işğal etdikləri türk torpaqlarından çəkilirlər.

Qurtuluş savaşından sonra 29 oktyabr 1923-cü ildə Türkiyə Böyük Millət Məclisi tərəfindən Cümhuriyyət elan edilir və Mustafa Kamal Atatürk prezident seçilir. 1938-ci ildə ölümünə qədər ard-arda dörd dəfə prezident seçilən Atatürk bu vəzifəni ən uzun müddət icra edən prezident olur.

Mustafa Kamala 24 noyabr 1934-cü ildə 2587 saylı qanunla "Atatürk" soyadı verilib və bu soyadın başqaları tərəfindən istifadəsi qadağan edilib.

**Turan**



## "Boşanmışam, yenidən toyum olacaq"

Zümrüd Qasımovanın 40-50 qonağı olacaq

**"Həyat yoldaşımla doğrudan da boşanmışıq. Bu, rəsmidir. Amma bir yerdə yaşayırıq. Bizim ailəmiz var".**

Bu sözləri aktrisa Zümrüd Qasımova "Səhər mərkəzi" proqramında deyib. Sənətçi həyat yoldaşı Nazim Zeynalovla boşanmalarından danışıb. O bildirib ki, yenidən ailə quracaq:

"14 il əvvəl ailə qurmuşam, rəsmi nikahda sual olur ki, "yoldaşının soyadını götürürsən". Mən də səhvən razılaşdım. Amma Zeynalova olmadım. Həm evli, həm də Zeynalova yazdırmalı idim. Bir dəfə yoldaşım dedi ki, soyadı götürəcəksən? Getdim, 1 aylıq soyadımı dəyişdim. Sonra dedilər ki, Qasımova olmaq üçün 8 ay vaxt lazımdır. Bütün sənədlər Qasımova soyadınadır, işim getmir. Gəldim yoldaşıma yalvardım ki, xahiş edirəm, məni boşa. Yoxsa bütün sənədlərimi dəyişməliyəm. Zəng etdi anama ki, and iç qayıdacaqsan. Boşandıq, Qasımovayam və subayam. İndi yoldaşım deyir ki, evlənək. Cavab verirəm ki, fikirləşirəm. Demişəm ki, bir şərtlə: ağ paltar geyinim, toy edək. İndi 40-50 qonağın olacağı toy edəcəyəm".

**Elan**

"Qloballaşan Azərbaycan" Sivil İnkişaf Mərkəzi İctimai Birliyinə məxsus Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş 26 may 2006-cı il tarixli Hüquqi Şəxsin dövlət qeydiyyatı haqqında Şəhadətnaməsi, təşkilatın Nizamnaməsi və Dövlət Reyestrindən Çıxarışı etibarsız hesab edilsin.



# İtaliyada 2300 illik tunc heykəllər tapılıb

**İtaliyanın Toskana şəhərində 2300 il yaşı olan qədim tunc heykəllər tapılıb.**

Azərtac xəbər verir ki, termal suların yerləşdiyi San Kaskiano dei Baqni bölgəsində aparılan qazıntılar zamanı 24 çox yaxşı vəziyyətdə olan tunc heykəl aşkarlanıb. Heykəllərdən beşinin hündürlüyü 1 metrdən çoxdur.

Tunc heykəllərin tapıldığı termal suların dibindəki palçıq sayəsində bu qədər yaxşı vəziyyətdə qaldığı bildirilir.

Ərazidə, həmçinin latın dilində yazılmış çoxlu yazılar və minlərlə sikkə də tapılıb. Əsərlərin eramızdan əvvəl I-II əsrlər arasındakı dövrə aid olduğu qeyd edilib. Bu tapıntının 1972-ci ildə ölkənin cənubundakı Kalabriya bölgəsində aşkarlanan 2500 illik Riace bürünc heykəllərindən sonra ən mühüm mədəni sərvət olduğu bildirilib.

# Bu darağın 3700 il yaşı var

## Tarixdə ilk əlifba ilə yazılmış ən qədim cümlə oxundu

*(Əvvəli səh:- 16-da)*



**Ölçüsü 3,5x2,5 santimetr olan daraq 2017-ci ildə qədim kənanlıların Lakiş adlı şəhər-dövlətinin xarabalıqları arasından tapılıb. Lakin 17 hərfdən ibarət yazı yalnız bu il daraq qorunmaq üçün təmizləndikdən sonra aşkar edilib.**

Lakiş Dəmir dövründə Yerusəlimdən sonra Yəhudi krallığının ikinci ən əhəmiyyətli şəhəri idi.

Arxeoloqlar əvvəllər Lakişdə qədim əlifbanın parçalanmış dəlillərini tapmışdılar, lakin bunlar divarlara və əşyalara həkk olunmuş və ya mürəkkəblə yazılmış iki-üç sözdən çox deyildi.

Tədqiqata rəhbərlik edən Yerusəlim İvrit Universitetinin arxeoloqu Yosef Qarfinkel deyib: "Bu, İsraildə Kənan dilində tapılan ilk cümlədir. Suriyada Uqaritdə kənanlılar var, lakin onlar bu günə qədər istifadə olunan əlifba ilə deyil, başqa əlifba ilə yazıblar".

Tədqiqatçılar karbon tarixləşdirmə metodundan istifadə edərək darağın dəqiq nə vaxt hazırlandığını öyrənməyə çalışsalar da, səylər aydın deyildi.

Bununla belə, tarixi mətnləri və digər ipuçlarını nəzərə alan qrup darağın eramızdan əvvələ aid olduğunu müəyyən edib. Təxminən 1800-cü illərdə hazırlandığı təxmin edilir.

Daraq köhnəlib və dişlərinin çoxu tökülüb. Yenə də qalan izlər göstərir ki, onun dolaşıq tükləri çıxarmaq üçün geniş aralı 6 dişi və bitləri çıxarmaq üçün dar aralı 14 dişi var.

Tədqiqatçıların fikrincə, qədim daraqlar ağacdan, sümükdən və fil sümüyündən hazırlanırdı. Fil sümüyündən hazırlanmış əşyalar zənginlik əlaməti idi.

**Turan**

# Mask "Twitter"in əməkdaşlarına evdən işləməyi qadağan edib



**Dünyanın ən zəngin şəxsi və "Twitter" şirkətinin yeni sahibi İlon Mask əməkdaşlara evdən işləməyin qadağan olunduğunu bildirib.**

Trend xəbər verir ki, bu barədə İ.Maskın şirkətin əməkdaşlarına ünvanladığı məktubda deyilir.

Məktubda qeyd olunur ki, əməkdaşlar həftədə azı 40 saat ofisdə olmalıdırlar. Evdən işləməyə yalnız müstəsna hallarda və yalnız İ.Maskın razılığı ilə icazə veriləcək.

*Qeyd edək ki, İlon Mask oktyabrın sonunda "Twitter"in 44 milyard dollara satın alınmasını tamamlamışdı. İş adamı şirkətin idarə heyətinin buraxılacağını və əməkdaşların ştat tərkibinin iki dəfə azaltmağı planlaşdırdığını bildirib.*

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 3221



## Bu darağın 3700 il yaşı var

### Tarixdə ilk əlifba ilə yazılmış ən qədim cümlə oxundu

**İsraildə arxeoloqlar ən qədim əlifba ilə yazılmış ən qədim cümləni aşkar ediblər.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, fil sümüyündən oyulmuş 3700 il yaşı olan darağın üzərindəki yazıda "Bu, saç və saqqal bitlərini kökündən çıxarır" deyilir.

Sözlər eramızdan əvvəl Aralıq dənizinin şərqində yaşayan semit dilli insanlar tərəfindən icad edilib. 1800-cü illərdə istifadə edilən ən qədim əlifba sistemi olan Kənan dilində yazılıb.

*(Davamı səh: 15-də)*

**Turan**

## ABŞ-ın Tennessi ştatında köləlik qadağan edilib



**ABŞ-da köləliklə bağlı yeni səsvermə keçirilib.**

Tennessi ştatında seçicilər müxtəlif cinayətlərdə təqsirli bilinənlər üçün cəza növü kimi köləliyə və məcburi köləliyə icazə verən qanunun ləğvi təklifini qəbul ediblər.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, qətnamə 79,54 faiz səslə qəbul olunub.Tennessi Konstitusiyasının 33-cü maddəsinə belə düzəliş edilib ki, "bu ştatda quldarlıq və məcburi köləlik həmişəlik qadağandır, yalnız cinayətə görə məhkum edilmiş şəxsi cəzalandırmaq istisna olmaqla". Yeni dəyişiklik bu cəzalara icazə verən dili aradan qaldırıb. Epizoddakı yeni ifadə "Köləlik və qeyri-iradi köləlik əbədi olaraq haramdır" kimi redaktə edilib. Ştatdakı seçicilərə göndərilməmişdən əvvəl Tennessi qanunvericilərinin əksəriyyəti təklifi dəstəkləsə də, altı qanunverici orqan onun əleyhinə səs verib.

**Turan**









# Atatürk təkcə sərkərdə deyildi

### O, həm də həyata keçirdiyi inqilablarla dövlət xadimi kimi tarixə düşüb



**Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürk 84 il əvvəl, 1938-ci il noyabrın 10-da Dolmabahçe sarayında, saat 9:05 radələrində vəfat edib.**

57 yaşında dünyasını dəyişən Atatürkün cənazəsi Dolmabahçe sarayının salonundakı xüsusi katafalkaya qoyulub. Türk bayrağına bükülmüş və silahdaşları tərəfindən qorunan tabut üç gün ərzində millətin ziyarətinə buraxılıb.

Atatürkün cənazəsi noyabrın 20-də Ankaraya aparılıb və noyabrın 21-də təşkil edilən xüsusi mərasimlə Etnoqrafiya Muzeyindəki müvəqqəti məzarlıqda dəfn edilib.

Daha sonra 1953-cü il noyabrın 10-da keçirilən dövlət mərasimi ilə Etnoqrafiya Muzeyindəki məzarlıqdan götürülərək Anıtkabirə aparılıb.

Türkiyə Cümhuriyyətinin qurucusu, cəsur və unudulmaz lideri Mustafa Kamal Atatürk təkcə Türk Millətinin Qurtuluş Savaşına uğurla rəhbərlik edən sərkərdə deyil, həm də həyata keçirdiyi inqilablarla dövlət xadimi kimi tarixə düşüb.

*(Davamı səh: 15-də)*

**Turan**

## Yenidən sevgili olublar

### İrina Şeyk və Bredli Kuper Nyu-York küçələrində görüntülənib



**İllər əvvəl ayrılan məşhur amerikalı aktyor Bredli Kuperlə rusiyalı model İrina Şeyk yenidən sevgili olublar.**

**Oxu.az xəbər verir ki, cütlük aktyorun "A Star Is Born" serialındakı rol yoldaşı Ledi Qaqa ilə münasibətdə olması ilə bağlı iddialara görə ayrılıb.**

**Avqust ayında birlikdə tətilə çıxan cütlüyün yenidən eşq yaşadığı iddia edilir.**

**Bu iddiaları cavabsız qoyan məşhurlar ötən gün ABŞ-nin Nyu-York şəhərinin küçələrində görüntülənib. Cütlüyün səmimi görüntüləri onların yenidən birlikdə olması barədə xəbərləri təsdiqləyib.**

**Qeyd edək ki, Leya adlı qızları olan Kuper və Şeyk 2019-cu ilin iyun ayında dörd illik münasibətlərdən sonra ayrıldıqlarını elan ediblər. Bununla belə, cütlük uşağın böyüməsində bərabər rol oynayacaqları barədə razılığa gəliblər.**

## Hadisə 40 milyonluq ev aldı



**Məşhur türkiyəli müğənni Hadisə boşandıqdan sonra keçmiş həyat yoldaşı Mehmet Dinçerlərlə qaldıqları evdən tamamilə ayrılıb.**

**Axşam.az xəbər verir ki, ifaçı Riva bölgəsindən bu dəfə Yeniköyə köçüb. O, yeni mənzilini almaq üçün 40 milyon lirə (3 milyon 661 min 215 manat) ödəyib.**

**Onun yaxın günlərdə yeni evinə köçəcəyi bildirilib.**



# Dünyada bir ilk yaşandı

### Ana bətnində ölümcül genetik xəstəlik müalicə olundu

**Kanadalı tibb mütəxəssisləri nadir və ölümcül genetik xəstəliyi olan körpəni ana bətnində müalicə ediblər.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, dünya tibb ədəbiyyatına daxil olan müalicə üsulu "New England Journal of Medicine" elmi tibb jurnalının son sayında da dərc olunub. Şərqi Ontario Uşaq xəstəxanası və Ottava xəstəxanasında həkimlər qrupu 2021-ci ildə aparılan prenatal testlərdə ananın körpəsinə Pompe xəstəliyi diaqnozu qoyub. Əvvəllər eyni genetik xəstəlik səbəbindən iki övladını itirən Zahir və Sobia Bashir cütlüyü Ayla adlı 16 aylıq körpələri üçün həkimlərin ana bətnində eksperimental müalicə təklifini qəbul edib. Həkimlər Pompe xəstəsinə əskik olan fermenti vermək üçün Aylanın anasına hamiləliyinin 24-37-ci həftələri arasında 6 infuziya veriblər. Körpəyə ferment, ultrasəs ilə idarə olunan iynələrdən istifadə edərək, dölün göbək damarına vurulub. Ottava xəstəxanasında prenatal ferment əvəzedici terapiyadan sonra uşaq 22 iyun 2021-ci ildə anadan olub.

Aylada aparılan analizlər onun ürəyi və əzələ inkişafının normal olduğunu göstərib.Körpəyə tətbiq edilən müalicə dünya tibb ədəbiyyatında "genetik xəstəlikdən ana bətnində müalicə olunan ilk körpə" kimi qeyd edilsə də, bu hadisə "dünyada ilk uşaqlıqdaxili müalicə" kimi də qeydə alınıb.

Dünyada hər 100.000 körpədən birində görülən Pompe xəstəliyi adətən körpələrdə ürək böyüməsi və əzələ zəifliyi ilə müşahidə olunan ölümə səbəb olur.

**Turan**

## Borc götürdüyü üç dostunu zəhərlədi

### 70 yaşlı qadın 25 il müddətinə azadlıqdan məhrum edilib



**Slovakiya borclu olduğu 3 nəfəri öldürməyə cəhd edən 70 yaşlı təqaüdçü qadından danışır.**

Paytaxt Bratislavada yaşayan Terezia Gyonyor adlı yaşlı qadın minlərlə avro borc götürdüyü üç rəfiqəsini öldürməyə cəhd edib.

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, hər üç qadın müxtəlif günlərdə Gyonyorun evində çay içdikdən sonra xəstəxanaya yerləşdirilib. Həkimlər müalicə olunan qadınların zəhərləndiyindən şübhələnsələr də, analizlər nəticəsiz qalıb.

Gyonyorun evinə qonaq gedəndən sonra qadınlar bir-birinə xəstə olduqlarını deyiblər və zəhərləndiklərini anlayıblar.

Növbəti gəlişlərində verilən çayı içməyən qadınlar vəziyyəti polisə çatdırıblar. Test zamanı içkinin tərkibində atropin aşkar edilib. Bu maddənin bədəndən çox tez xaric olduğu, buna görə də xəstəxanada aparılan analizlərdə tapılmadığı anlaşılıb.

Gyonyor məhkəmənin hökmü ilə "öldürməyə cəhd" ittihamı ilə 25 il müddətinə azadlıqdan məhrum edilib.

Yaşlı qadın ittihamları rədd etsə də Ali Məhkəmənin hökmü qüvvədə saxlanılıb və 70 yaşlı qadın həbsxanaya göndərilib.

**Turan**